# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 18 (3484) Cümə axşamı / 25-31 may 2023-cü il Qiymәti 40 qәpik


# Sülhün qarantı Ordumuzdur

***Son günlərdə Azərbaycan və Ermənistan arasında sülh danışıqları ilə bağlı proses diplomatik müstəvidə sürətləndirilsə də, sərhəddə mütəmadi olaraq təxribatların şahidi oluruq. Erməni tərəfinin təxribatları hər dəfə layiqli cavabını alsa da, indi Fransa, Hindistan, İran kimi dövlətlər ErmƏnistan ordusunun yenidən formalaşdırılması, müasir hərbi texnika ilə təmin edilməsi üçün fəaliyyətə keçiblər. Belə bir şəraitdə Azərbaycanda hər kəsi yenidən Silahlı Qüvvələrimizin real gücü və imkanları maraqlandırır. Qeyd edək ki, Azərbaycan hərbi gücünə görə dünya miqyasında 57-ci sıradadır. Bu barədə hərbi sahədə ixtisaslaşmış "Global Firepower" portalının 2023-cü illə bağlı reytinqində deyilir. Reytinqə görə, Azərbaycan 145 ölkə arasında 57-ci yerdə qərarlaşıb. Gürcüstan reytinqdə 85-ci, Ermənistan 94-cü yerdədir. Siyahıda ilk üçlükdə ABŞ, Rusiya və Çin silahlı qüvvələri yer alıb. Qardaş ölkə Türkiyə 11-ci sıradadır. Reytinqin tərtib olunması zamanı orduların silah sənayesindəki texnoloji inkişafı, maliyyə vəziyyəti, maddi-texniki imkanları və çevikliyi kimi cəhətlər qiymətləndirilir. Bəs bu qiymətləndirmə reallığı nə dərəcədə əks etdirir?***



"

*Azərbaycan Ordusu sülhün bərpası və davamlılığının qarantı kimi qəbul olunmalıdır*

*Azərbaycan dövləti hər il orduya ayırdığı büdcəni artırır*

*Qafqazda Azərbaycan silahlı qüvvələri regionun ən güclü ordusu kimi qiymətləndirilir*

**Şair Ramaldanov, ehtiyatda olan polkovnik:**



- Artıq 44 günlük müharibədən ötən iki il müddətində hərbi sahədə aparılan ciddi islahatlar Azərbaycan Ordusunun inkişafını daha da sürətləndirib. ABŞ-ın "Global Firepower" saytı ordularla bağlı statistik məlumat toplayan və təhlil edən çox nüfuzlu qurumdur. Belə statistik göstəricilər 60 əmsal üzərindən araşdırılaraq ortaya çıxarılır və hərtərəfli məlumatlar əsasında dünyada güclü orduların sıralanması aparılır. Bu gün Azərbaycan Ordusunda xüsusi təyinatlı dəstələrin, Komondo briqadalarının yaradılması və aparılan islahatlar Silahlı Qüvvələrimizin inkişafından xəbər verir. Azərbaycan Ordusunun şəxsi heyəti həm də müharibə təcrübəsindən çıxmış bir heyətdir. Zabit, komandir heyətinin, demək olar ki, 90 faizdən yuxarısı müharibə iştirakçısıdır. Bu da Azərbaycan Ordusunun peşəkarlığından xəbər verir...



**Elxan Şıxəliyev, hərbi ekspert:**



- Həmin siyahıda 11-ci yerdə Türkiyənin, 7 -ci yerdə Pakistanın, 18-ci yerdə yer alan İsrailin hərbi əməkdaş olaraq yanımızda durması Azərbaycanın gücünə güc qatır, silahlı qüvvələrimizi yeni mərhələyə çıxarmış olur. Bu yol xəritəsi uzun müddət həyata keçiriləcək. Ona görə ki, bu gün təhdid və təhlükələr azalmaq əvəzinə artmaqdadır.

Yeni model, yeni vizionda yaradılacaq silahlı qüvvələrimiz bu təhdid və təhlükələri dəf edəcək ordu halına gələcək. Azərbaycanın həmin siyahıda Ermənistandan 37 pillə irəlidə olması onu göstərir ki, bizim ordu 60 kriteriya üzrə 27-nin 1-ə nisbətində güclüdür. Silahlı Qüvvələrimiz 44 günlük müharibəyə hazırlığı və nəticəsi üzərindən yeni mərhələyə keçib. Prezidentin də qeyd elədiyi kimi, müharibənin hər günü təhlil edilməklə əməliyyatların müsbət və mənfi yönləri üzərindən yeni ordunun yaradılmasına qərar verildi. Məhz Şuşa Bəyannaməsi ilə Türkiyənin mini modelinə keçidin həyata keçirilməsi uğurla həyata keçirildi. Orduların gücündə əsas kriteriya döyüş təcrübəsinin olub-olmaması, şəxsi heyətin döyüş hazırlığı və silahlanması ilə ölçülür...

Səh. 3

MÜSAHİB

# 105 yaşlı Cümhuriyyət



**Firdovsiyyə Əhmədova,**
tarix üzrə fəlsəfə doktoru

***Azərbaycan Respublikası dövlət, xalq kimi bu gün varisi olduğu Azərbaycan Demokratik Cümhuriyyətinin 105-ci ilini qeyd edir. Əsrdən çox tarixi keçmişə sahib olan Azərbaycan Cümhuriyyət irsinin araşdırılması, aparılan təhlillər həmin tarixin ciddi şəkildə öyrənilməsi zərurətini ortaya qoyur. Azərbaycan Demokratik Cümhuriyyəti 23 aylıq fəaliyyəti ilə əslində, bugünün reallığına işıq salır, bir daha dövləti, millət, xalqı qarşısında mühüm vəzifələr qoyur. Bu istiqamətdə "Həftə içi" qəzetinə müsahibə verən tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədova tarixi faktlarla Azərbaycan Demokratik Cümhuriyyətinin yaranışını və əhəmiyyətini təhlil edib.***

23 ay ərzində Cümhuriyyət qurucuları əsrlərə söykənən böyük demokratiya yolu qət etmiş oldular

Səh. 5

MÜSAHİB



**Ərəstun Oruclu,**
siyasi təhlükəsizlik məsələləri üzrə ekspert

■ Ukrayna daha çox üzücü müharibə taktikası həyata keçirir

■ ABŞ-ın Ukraynadakı münaqişəni dondurmaq barədə hansısa planları olduğunu düşünmürəm

■ Genişmiqyaslı əks-hücum yalnız o zaman mümkündür ki, bütün bu silah növləri ilə Ukrayna ordusu tam təchiz olunsun

Səh. 3

GÜNÜN FOTOSU...



Zelenski cəbhədə

GÜNÜN SİTATI

"

*Azərbaycan dünya arenasında haqlı nüfuz qazanıb, beynəlxalq gündəliyin bir çox aktual məsələlərinin həllində fəal rol oynayır*

"



**Vladimir Putin,**
Rusiya Federasiyasının Prezidenti

KARİKATURA



İranın Ermənistana dəstəyi

# Tədris müddəti dəyişdirilir?!

**Nadir İsrafilov,**
təhsil eksperti

Tədris ilinin başlanma və başaçatma müddətini sovet ənənəsindən uzaqlaşmaq üçün dəyişmək düzgün deyildi.

Səh. 4

STATİSTİKA



**■ 2022-ci ildə gömrük orqanlarının xətti ilə dövlət büdcəsinə 5654,6 milyon manat məbləğində vəsait daxil olmuşdur ki, bu da 4605,0 milyon manat proqnozla müqayisədə 1049,6 milyon manat və ya 22,8 faiz, 2021-si illə müqayisədə 1311,6 milyon manat və ya 30,2 faiz çoxdur.**

Proqnozla nəzərdə tutulduğundan artıq daxilolmalara səbəb əsasən idxalın həcminin əvvəlki illə müqayisədə 2834,1 milyon ABŞ dolları və ya 24,2 faiz artması ilə izah olunur.



Səh. 7

# Ət bahalaşır, idxalı artır

**PREZİDENTİN İŞ GÜNÜ**

# Təbrik



**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məktub göndərib. Məktubda deyilir:**

"Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Ölkəniz sosial və iqtisadi sahələrdə böyük uğurlar əldə edib. Azərbaycan dünya arenasında haqlı nüfuz qazanıb, beynəlxalq gündəliyin bir çox aktual məsələlərinin həllində fəal rol oynayır.

Rusiya-Azərbaycan münasibətləri müttəfiqlik qarşılıqlı fəaliyyəti səviyyəsinə yüksəlib, müxtəlif istiqamətlərdə konstruktiv ikitərəfli əməkdaşlıq dinamik şəkildə inkişaf edir.

Əminəm ki, biz birgə səylərlə dost xalqlarımızın rifahı naminə tərəfdaşlıq əlaqələrinin bütöv kompleksinin gələcək inkişafını təmin edəcəyik.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və uğurlar, Azərbaycanın bütün vətəndaşlarına xoşbəxtlik və firavanlıq arzu edirəm".

***

**Çex Respublikasının Prezidenti Petr Pavel Prezident İlham Əliyevə məktub ünvanlayıb. Məktubda deyilir:**

"İcazə verin, Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və ölkənizin xalqına ən səmimi təbriklərimi çatdırım. Ölkələrimiz arasında dostluq münasibətləri mövcuddur və inanıram ki, birgə səylərimiz nəticəsində biz bu əlaqələri hərtərəfli inkişaf etdirə biləcəyik.

Zati-aliləri, Sizə uğurlar, Azərbaycan xalqına xoşbəxtlik və firavanlıq arzulayıram".

***

**Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**

Təbrikdə deyilir: "Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə və dost xalqınıza ən səmimi təbriklərimi, xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram. Misir ilə Azərbaycanı illər boyu davam edən möhkəm dostluq əlaqələri birləşdirir. Ümidvaram ki, birgə əməkdaşlıq və sıx koordinasiya sayəsində ikitərəfli münasibətlərimizin həm ölkələrimizin, həm də xalqlarımızın rifahı naminə ümumi maraq kəsb edən sahələrdə böyük irəliləyişinin şahidi olacağıq.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı və davamlı tərəqqi, dost Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram".

# Ceyhun Bayramov Lui Bono ilə sülh prosesini müzakirə edib



**24 may 2023-cü il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bono arasında görüş keçirilib.**

XİN-dən verilən xəbərə görə, görüş zamanı, Azərbaycan-Ermənistan arasında sülh prosesi, "Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında" saziş layihəsi üzrə danışıqların cari vəziyyəti, bu çərçivədə aparılmış son görüşlərin nəticələri və danışıqların perspektivləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov eyni zamanda, kommunikasiyaların açılması və delimitasiya prosesi barədə ölkəmizin mövqeyini bir daha diqqətə çatdırıb.

Lui Bono ABŞ-ın sülh prosesinə bütün vasitələrlə dəstək verməyə hazır olduğunu bildirib. O, bölgənin inkişafı üçün sülh və əmin-amanlığın təmin edilməsinin zəruri olduğunu diqqətə çatdırıb. Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Moskvada üçtərəfli görüş

***Azərbaycan və Ermənistan arasında sülh danışıqları ilə bağlı Qərbin fəallaşması Moskvanı da hərəkətə gətirdi. Brüssel və Vaşinqtondan sonra Rusiya Moskvada xarici işlər nazirlərinin üçtərəfli görüşünü təşkil etdi. Bir çox ekspertlər Moskvanın fəallığının, sadəcə, Cənubi Qafqazdakı mövcudluğunun təhlükə altında olub-olmadığını aydınlaşdırmaq məqsədi daşıdığını dəqiqləşdirməkdən ibarət olduğu qənaətindədir. Yəni Moskvada, əslində, Bürssel və Vaşinqtonda əldə edilən razılaşmalardan üstün heç bir nəticə qazanılmayıb.***



## Gündəm

Kremlin Ukraynada üzləşdiyi vəziyyət onun «maraq dairəsi» adlandırdığı digər ərazilərdə Qərblə siyasi qarşıdurmaya getməsini xeyli çətinləşdirir. Kremlin çıxılmaz durumu onun isterik bəyanatları və «danışan dili» olan ekspertləri vasitəsilə də dövriyyəyə buraxılır. Bir məqam xüsusi olaraq vurğulanmalıdır ki, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatdan sonra bölgəyə göndərilən rusiyalı hərbçilərin fəaliyyətindəki nöqsanlar rəsmi Bakı tərəfindən daim açıq şəkildə bəyan edilib. Hətta qarşı tərəfin fəaliyyətsizliyi Azərbaycanın bir neçə antiterror əməliyyatları aparmasına rəvac verib. Laçın yolunda sərhəd-buraxılış məntəqəsinin qurulması, «Dağlıq Qarabağın statusu»nun gündəlikdən çıxarılması, Azərbaycan və Ermənistanın qarşılıqlı şəkildə bir-birlərinin ərazi bütövlüklərini tanıdıqlarını bəyan etməsi isə Kremlin planlarını pozur. Onun Qarabağda, Ermənistanda daimi mövcudluğunu sual altında qoyur. Belə bir vəziyyətdə isə «istənilməyən qonaq» durumuna düşən Moskva «siyasi ekspertləri vasitəsilə Azərbaycan və Ermənistana «xəbərdarlıq» edir.

Məsələn, rusiyalı ekspert Viktor Nadein-Rayevski hesab edir ki, XİN başçıları səviyyəsində aparılan danışıqlarda, ən azı, "Azərbaycanın Rusiya sülhməramlılarına qarşı təxribat xarakterli hərəkətlərinə" son qoymaq istəyir: "Hansı ki, bundan əvvəl azərbaycanlı fəallar rusiyalı sülhməramlıların nəzarət etdikləri əraziyə daxil olmağa cəhd ediblər.

Rusiya indi Qafqaz deyil, Ukrayna ilə məşğuldur. Ona görə də Azərbaycanda bəzilərinin fikrincə, təxribatlar təşkil etmək olar. İkincisi, Azərbaycanda belə bir anlayış yoxdur ki, bizim iştirakımızla bağladıqları atəşkəs sazişinə əsasən böyük ərazilər alıblar.

O olmasaydı, hər şeyə qanla qalib gəlmək lazım idi. Mən istərdim ki, Xarici İşlər Nazirliyi bu məlumatları Azərbaycanın diqqətinə çatdırsın ki, onlar başa düşsünlər. Ermənistanın indiki rəhbərliyi qərbpərəstdir, anti-Rusiyadır. Ona görə də bütün bu ziddiyyətli amillər nəzərə alınmalıdır. İndi Rusiya status-kvonun saxlanmasında maraqlıdır. Onda bizim digər cəbhələrdə - hər şeyin hələ bitmədiyi Ukrayna və Suriyada hərəkətlər üçün əlimiz sərbəst olacaq".



Göründüyü kimi, Azərbaycanın tarixi qələbəsinin əhəmiyyətini azaltmağa çalışan rusiyalı siyasilər nədənsə 2020-ci ilin noyabrında atəşkəs bəyanatına imza atan Azərbaycanın ermənilərə humanist yanaşmasını, onminlərlə erməni hərbçinin həyatını bağışladığını unudur. Sanki ordumuzun əkshəmlələri qarşısında qaçan ermənilər Kəlbəcəri, Laçını, Ağdamı müdafiə edəcəkdilər. Azərbaycanın 44 günlük müharibənin sonunda atəşkəsə razılaşması, əslində, ilk gündən ərazilərimizdən işğalçıların çıxması ilə bağlı konkret qrafikin verilməsinə məcbur qalması və üçtərəfli bəyanata İrəvanın imza atması əsasında baş tutdu.

> *Moskvadakıların əsl məqsədlərinin nə olduğunu nəzərə alıb deyə bilərik ki, orada digər platformalarda qazandığımız uğurun təsdiqlənməsi və həzm etdirilməsinin özü elə uğur kimi qiymətləndirilməlidir*

■ **Millət vəkili Sahib Alıyevin qənaətincə, Moskvada XİN başçılarının görüşünün təşkilində məqsəd prosesi daha da irəli aparmaqdan çox Azərbaycanla Ermənistan arasında gedən danışıqların nəzarətdə saxlanıldığını, Rusiyanın hər vəchlə bu regionda öz mövcudluğunu qoruyacağını sərgiləmək idi:** "Moskvadakıların əsl məqsədlərinin nə olduğunu nəzərə alıb deyə bilərik ki, orada digər platformalarda qazandığımız uğurun təsdiqlənməsi və həzm etdirilməsinin özü elə uğur kimi qiymətləndirilməlidir.

Bu danışıqları Azərbaycanın indiyədək atdığı addımların nə dərəcədə yerində olması və bəzi dövlətlərin diplomatik tələlərini necə ustalıqla dəf etməyimizin aydın dərki baxımından da önəmli sayıram".

İndi isə bu gün Moskvada Azərbaycan və Ermənistan liderlərinin də iştirakı ilə növbəti müzakirələr olacaq. Rusiyalı ekspertlər hər vəchlə Brüssel və Vaşinqton danışıqlarının əhəmiyyətini azaldaraq əsas vasitəçi qismində Moskvanın rolunu qabartmağa çalışırlar.

■ **Cənubi Qafqaz Strateji Araşdırmalar Mərkəzinin direktoru Yevgeni Mixaylov bildirir ki, Moskada planlaşdırılan danışıqlar nizamlanma yolunda çox müsbət addımdır:** "Arlinqton, Brüssel formatları, "danışıq" yorğanını öz üzərinə çəkməyə çalışan mərkəzlərin heç biri sonda hansısa mühüm rol oynamayacaq. Moskva, Bakı və İrəvan məsələləri həll etdikcə, bu xətt üstünlük təşkil edəcək. Sonda Paşinyan qərar verməli olacaq ki, o, Rusiya maraqlarının periferiyasına çevrilmək istəyir, yoxsa Rusiya Federasiyasının müttəfiqi olaraq qalmaq istəyir. Və əgər Rusiyanın müttəfiqi olmaq istəyirsə, o zaman Azərbaycanla danışıqlar aparmalıdır. Mən sizin diqqətinizi bir fakta cəlb etmək istəyirəm ki, Azərbaycan Rusiyanın daha güclü müttəfiqinə çevrilir".

Rusiya rəsmilərinin Moskva görüşü ilə bağlı gözləntiləri də optimistdir.

■ **"Rusiya Azərbaycan və Ermənistan liderlərinin Moskva görüşünün müsbət nəticələnəcəyi qənaətindədir".** Bu barədə azərbaycanlı jurnalistlərə Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın qarşıdakı Moskva görüşünü şərh edən Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib. Kremlin rəsmi nümayəndəsi deyib: "Biz nəticələrin olacağına ümid etmək istərdik. Bu nəticələrin hansı dərəcədə müsbət olacağını zaman göstərəcək".



Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova isə deyib ki, Rusiya Ermənistanın baş naziri Nikol Paşinyanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması barədə bəyanatlarını onun mövqeyinin təsdiqi kontekstində nəzərdən keçirir.

RF XİN-in təmsilçisi qeyd edib ki, Ermənistan-Azərbaycan məsələsinin nizamlanmasında vasitəçi kimi Rusiya üçün dövlətlərin, xüsusən də Ermənistanın bu mövzuda dəqiq mövqeyinin olması mühümdür. "Ümumilikdə Ermənistan baş nazirinin bəyanatlarını 2022-ci il oktyabrın 7-də Praqada Azərbaycan, Ermənistan, Fransa və Aİ liderlərinin iştirakı ilə keçirilən görüşdə onun tutduğu mövqeyin təsdiqi kimi nəzərdən keçiririk".

M.Zaxarova xatırladıb ki, bu görüşdə Sovet İttifaqının keçmiş respublikaları arasında inzibati sərhədlərin dövlətlərarası sərhədlər qismində tanındığı 1991-ci ilin Alma-Ata Bəyannaməsinə istinadla birgə bəyanat qəbul olunub. O əlavə edib ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada keçirilən sonuncu görüşü bir çox məsələlər üzrə onların mövqeyini yaxınlaşdırmağa imkan verib.

Sülh prosesinin hansı şəhər və ya vasitəçinin təşəbbüsü ilə aparılmasına baxmayaraq önəmli olan rəsmi Bakının mövqeyidir. Bu mövqe isə Azərbaycan xalqının gözləntilərinə əsaslanır.

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinə ictimai münasibəti öyrənmək məqsədilə sorğu keçirib.

Sorğuda iştirak edənlərin 77,3 faizi Azərbaycan və Ermənistan arasında sülh müqaviləsini dəstəklədiyini bildirib, 20,6 faiz respondent bu barədə əks mövqedə qərarlaşıb, 2,1 faiz isə fikir bildirməkdə çətinlik çəkib.

Nəticələrə əsasən, respondentlərin mütləq əksəriyyəti və ya 85,2 faizi Azərbaycan və Ermənistan arasında sülh razılaşması ilə bağlı prosesləri və xəbərləri izlədiyini qeyd edib. Respondentlərin cəmi 14,8 faizi prosesləri izləmədiyini bildirib.

Nəticələrin gender aspektdən təhlili sözügedən mövzuda kişi və qadınların bərabər səviyyədə müsbət mövqedən çıxış etdiyini göstərib.

Nəticələri respondentlərin təhsil səviyyələri üzrə təhlil etdikdə ali təhsillilərin 82,7 faizi, orta təhsillilərin 72,2 faizi Azərbaycan və Ermənistan arasında sülh müqaviləsini dəstəkləyib. 18-24 yaş qrupunu təmsil edənlərin 76,9 faizi, 65-dən yuxarı yaş qrupuna mənsub olanların 87,3 faizi isə analoji mövqedən çıxış edib.

Qeyd edək ki, 2022-ci ilin sentyabr ayında keçirilən sorğunun nəticələrinə əsasən, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinə respondentlərin 71,2 faizi ("tam dəstəkləyirəm" - 50.2 faiz, "əsasən dəstəkləyirəm" - 21 faiz) bu və ya digər dərəcədə dəstəyini ifadə edib. Respondentlərin cəmi 2,6 faizi əsasən dəstəkləmədiyini, 23,6 faizi heç dəstəkləmədiyini bildirib. İştirakçıların 2,6 faizi bu suala rəyini ifadə etməkdə çətinlik çəkib.

Həmin ilin dekabr ayında keçirilən sorğuda iştirak edənlərin 73,1 faizi sülh müqaviləsini dəstəklədiyini, 25,6 faizi dəstəkləmədiyini bildirib. 1,3 faizi bu suala fikir bildirməkdə çətinlik çəkib. Göründüyü kimi, ötən ilin müxtəlif dövrlərində keçirilən rəy sorğusunun nəticələri ilə müqayisədə Azərbaycan cəmiyyətində sülh müqaviləsinin imzalanmasına dəstəyini ifadə edənlərin sayında nisbi artım müşahidə olunub. Azərbaycan cəmiyyətinin sülh və barış mövqeyinə baxmayaraq, Ermənistan postmüharibə mərhələsində də ölkəmizə qarşı hərbi təxribatlarını davam etdirərək sülh prosesindən yayınmağa çalışır.

> *Moskva, Bakı və İrəvan məsələləri həll etdikcə, bu xətt üstünlük təşkil edəcək*

Qeyd edək ki, sorğular 2023-cü il mayın 14-17-də könüllü iştirak əsasında 18 yaşından yuxarı 384 respondent arasında keçirilib, anonimlik tam qorunub. Sorğularda telefonla müsahibə formasından istifadə edilib və 12 iqtisadi rayon əhatə olunub. Bu məqsədlə müvafiq məlumat bazasından sözügedən iqtisadi və inzibati rayonlara (şəhərlərə) aid stasionar telefon nömrələri təsadüfi qaydada seçilərək zənglər olunub. Sorğunun seçmə çərçivəsi ölkə üzrə əhali sayının paylanmasına proporsional müəyyən edilib və gender balansı qorunub. Nəticələrin əminlik intervalı 95 faiz, xəta payı 5 faizə bərabərdir. Bu fakt bir daha göstərir ki, Azərbaycan doğru yoldadır.

Ermənistanla sülh bağlanmalıdır və Prezident İlham Əliyevin də vurğuladığı kimi, bu, qaçılmazdır. Prosesin hansı istiqamətdə davam edəcəyini və şərtləri isə nə Vaşinqton, nə Brüssel, nə də Moskva müəyyənləşdirir. Bu prosesdə əsas söz sahibi qalib dövlət olan Azərbaycandır.

*✍ Vüsal Tağıbəyli*

## Müsahib

**Siyasi təhlükəsizlik məsələləri üzrə ekspert Ərəstun Oruclu hafta.az-a budəfəki müsahibəsində Rusiya-Ukrayna cəbhəsindəki vəziyyət, ayrıca son günlər Baxmut ətrafında və Rusiyanın Belqorod vilayətində baş verənlərin mahiyyəti, Ukrayna Prezidenti Vladimir Zelenskinin ötən şənbə günü Xirosimada keçirilən Yeddilik Qrupunun ("G7") sammitində iştirakı, ABŞ-ın Ukraynadakı münaqişəni dondurmaq planları haqqında danışdı. Həmçinin Türkiyədə Prezident seçkilərinin ikinci turu öncəsi gedən prosesləri təhlil etdi...**

# Ukraynanın əks-hücumu niyə başlamır?

"

*Ukrayna daha çox üzücü müharibə taktikası həyata keçirir*

*Genişmiqyaslı əks-hücum yalnız o zaman mümkündür ki, bütün bu silah növləri ilə Ukrayna ordusu tam təchiz olunsun*

*ABŞ-ın Ukraynadakı münaqişəni dondurmaq barədə hansısa planları olduğunu düşünmürəm*

***- Ukraynanın Baxmut cəbhəsindən ziddiyyətli xəbərlər gəlməkdə davam edir. Rusiyanın Belqorod vilayətinin isə "Rusiya azadlıq ordusu" tərəfindən azad olunmasından danışılır. Moskva üzərində həmin qurumun bayrağı da görünüb. Sizcə, Rusiya-Ukrayna savaşında sərt dönüş başlayıbmı?***

- Baxmut ətrafında gedən döyüşlər faktiki olaraq Rusiya ordusunun, ən azı, Ukraynanın şərqində fəaliyyət göstərən, əməliyyatlar aparan hissəsinin tükənməsi ilə nəticələndi.

Belə ki, işğalçı ordu həmin istiqamətdə bütün müharibəboyu verdiyi itkilərin bəlkə də 70-80 faizini verib. Eyni zamanda, Baxmut döyüşləri Rusiyanın daxilində də bir gərginlik yaratdı. Məsələn, "Vaqner" özəl hərbi şirkəti ilə Müdafiə Nazirliyi arasında. Təbii ki, "Vaqner" də bu məsələdə Kremli təmsil edir. Nəticə etibarilə başqa bir hadisə baş verdi. Həmin istiqamətdə Rusiya ordusunun zəifləməsi ona gətirib çıxardı ki, artıq Ukrayna Silahlı Qüvvələri Rusiyanın daxilinə, xüsusilə də Belqorod və bir qədər də Kursk vilayətinə müdaxilə etməyə başladı. Əlbəttə, bu, birmənalı olaraq Rusiyanın daxili siyasətinə təsir edən amildir və artıq öz fəsadlarını göstərməkdədir. Məsələ burasındadır ki, həmin o "Rusiya Azadlıq Ordusu" deyilən xüsusi təyinatlılar, - onların arasında diversantlar və partizan müharibəsi apara bilən döyüşçülər var, - artıq Rusiya ərazisinə keçiblər.

Bu olay hər bir halda Rusiyanın daxili siyasətinə, Putinin vəziyyətinə, Kremlin durumuna birmənalı şəkildə təsir edəcəkdir. Bu təsirin də ilk əlaməti ondan ibarət olacaqdır ki, müxtəlif qurumlar arasında çəkişmələr başlayacaq, konfliktlər dərinləşəcək. Məsələn, "Vaqner"lə Müdafiə Nazirliyi arasında olduğu kimi... Bu isə Rusiyanın ümumi məğlubiyyətinə aparan yoldur və təbii ki, son nəticədə Putinin siyasi çöküşünə yol açacaqdır. Bu, qaçılmazdır...

***- Aylardır, Ukraynanın genişmiqyaslı əks-hücumundan bəhs edilir. Amma bu, hələ də başlanmır. Sizcə, buna mane olan əsas amillər hansılardır?***

- Ukraynanın genişmiqyaslı əks-hücuma başlamamasının səbəblərinə gəldikdə, birincisi, ümumiyyətlə, Ukrayna hərbi-siyasi komandanlığının belə bir hücum planı yoxdur. Ona görə ki, əks-hücuma keçmək faktiki olaraq müharibənin miqyasını böyütməkdir. İndiki resurslarla Ukraynaya bu lazım deyil. Biz görürük ki, Ukraynanın silahlandırılması mərhələli şəkildə gedir: əvvəlcə bir növ silahları verirlər, sonra tanklar, daha sonra raketlər, ardınca təyyarələr... Genişmiqyaslı əks-hücum yalnız o zaman mümkündür ki, bütün bu silah növləri ilə Ukrayna ordusu tam təchiz olunsun. Həmin silahların idarə olunması üzrə təlimlər keçirilsin və onların nətisəsi ortaya qoyulsun. Bundan sonra da bir əks-hücum, döyüş planı hazırlansın. Bunun əlamətləri görünmür. Görünən odur ki, mərhələli şəkildə Ukraynaya silahlar verilir və bu silahların verilməsi də hər dəfə Rusiya ordusu və dövləti üçün müəyyən sürprizlər yaradır. Ukrayna Rusiyaya qarşı daha çox üzücü bir müharibə taktikası həyata keçirir. Genişmiqyaslı əks-hücum haqqında söhbətlər isə çox güman ki, ya dezinformasiyadır, ya da növbəti mərhələ üçün nəzərdə tutulub. Çox güman ki, belə bir əks-hücum kampaniyası gələcəkdə ola bilər. Dediyim kimi, heç olmaya da bilər. Faktiki olaraq bu gün müharibə Rusiyanın ərazisinə keçməkdədir. Belə olduğu halda, hansısa əks-hücuma ehtiyac varmı? Zənnimcə, yox...

Düşmənin arxa cəbhəsində destablizasiya yaratmaq özü elə ən ciddi taktikadır. Və nəticə verəcək bir taktikadır. Xülasə, Ukraynanın genişmiqyaslı əks-hücuma başlamamasına səbəb kimi mən bunları görürəm...



**Ərəstun Oruclu,**
siyasi təhlükəsizlik məsələləri üzrə ekspert

***- ABŞ-ın Ukraynadakı savaşda hansısa yolla atəşkəsə nail olmaq və münaqişəni dondurmaq planları üzə çıxıb. Bu haqda nə deyə bilərsiniz?***

- ABŞ-ın Ukraynadakı münaqişəni dondurmaq barədə hansısa planları olduğunu düşünmürəm. Belə planları olan tərəf, - yalnız ABŞ-ı nəzərdə tutmuram, buraya NATO, Qərb ölkələri də aiddir, - Ukraynanı bu cür intensiv şəkildə silahlandırmazdı. Ukrayna ordusu və ya həmin ölkədə fəaliyyət göstərən digər növ silahlı birləşmələr münaqişəni Rusiya ərazisinə keçirib. Belə olduğu halda, əlbəttə ki, hadisələr Rusiyanın ziyanına, Ukrayna və onun müttəfiqlərinin isə xeyrinə cərəyan edir. Bax, bu halda münaqişəni dondurmağa ehtiyac varmı? İnandırıcı deyil bu... Ümumiyyətlə, Ukraynadakı savaşla bağlı ortaya çıxan məlumatlar, bəzən fakt şəklində təqdim olunan sənədlər belə (hətta onların orijinallığı da iddia edilir), müəyyən bir informasiya müharibəsi xarakteri daşıyır və çaşqınlıq yaradır...

Söhbətimizin əvvəlində də bəhs etdiyimiz kimi, uzun müddətdir Ukrayna Ordusunun genişmiqyaslı əks-hücuma keçəcəyi haqda söhbətlər dolaşır, təkliflər verilir, planlar üzə çıxır, ekspert rəyləri verilir. Nəticə etibarilə heç bir miqyaslı əks-hücum yoxdur və yaxın zamanda da olacağı gözlənilmir. Düşünürəm, bu da informasiya müharibəsinin tərkib hissəsidir. Eyni zamanda, hər hansı yolla atəşkəsə nail olmaq və münaqişəni dondurmaq planları haqda məlumatlar da, bu qəbildən olan informasiyalardır.

Əlbəttə, nəzərə alsaq ki, qarşıdakı ildə Birləşmiş Ştatlarda Prezident seçkiləri olacaq və həmin seçkilərdə respublikaçıların Baydenə qarşı Ukrayna münaqişəsindən də istifadə edəcəyi artıq indidən görünür, belə bir planın da mövcudluğu inandırıcı görünə bilər. Məsələyə bir qədər dərindən baxdıqda Ukraynanı dəstəkləyən Qərb tərəfinin, ABŞ-ın buna can atmaq üçün heç bir əsası yoxdur.

***- Ukrayna lideri "G7" sammitindən hansı real uğurlarla dönüb?***

- "G-7" ölkələrinin sammitində Zelenskinin qazandığı ən ciddi uğur ondan ibarət oldu ki, birmənalı şəkildə Ukraynaya dəstək ifadə olundu. Və yalnız sözdə deyil... Bilirik ki, Ukrayna Ordusuna artıq hücum silahları da verilməkdədir: "F-16" qırıcıları, yeni raket növləri. Həmçinin əlavə maliyyə və silah-sursat yardımı da edilir. Ən başlıcası, dediyim kimi, sammit iştirakçıları tərəfindən bildirildi ki, Ukraynaya nə qədər lazımdırsa, o qədər də dəstək veriləcək...

Bağlı qapılar arxasında nələr olub, nələr danışılıb - biz bunu bilmirik. Elə bu deyilənlər, mətbuata çıxan mövqelər və bəyanatlar göstərir ki, Zelenskinin Yaponiyaya səfəri kifayət qədər uğurlu olub. Ukraynaya da həm hərbi, həm iqtisadi, maliyyə dəstəyi davam edəcəkdir. Həm də təbii ki, siyasi dəstək... Bu, açıq-aydın görünməkdədir. Rusiyanın təcavüzünün ilk dövrlərində "G-7" ölkələri arasında bəzən Ukrayna ilə bağlı fərqli mövqelər sərgiləyənlər olurdu. Bu gün artıq hər hansı fərqlilik görünmür. Hazırda görünür ki, həmin ölkələrin hamısı eyni platformadan, eyni mövqedən çıxış edirlər. Ukrayna üçün ən böyük uğur da elə budur...

- Bildiyimizə görə, hazırda Türkiyədəsiniz, qardaş ölkədə prezident seçkilərinin II turu öncəsi durum, cəmiyyətin əhval-ruhiyyəsi barədə ümumi təəssüratlarınızı bölüşsəniz, oxucularımız üçün də maraqlı olar...

*✍ Sultan Laçın*

# Sülhün qarantı Ordumuzdur

◂ əvvəli 1-ci səhifədə

**Şair Ramaldanov, ehtiyatda olan polkovnik:**

...Nə qədər təlimlər, məşğələlər keçirilsə də, döyüş təcrübəsi ordunun inkişafında xüsusi əhəmiyyət kəsb edir. Bu gün Azərbaycanda ordunun silahlandırılmasına, müasir silahlarla təchiz edilməsinə mühüm yer ayrılır. Orduda aparılan islahatlar müstəvisində Azərbaycan NATO bloku içərisində ən güclü ordular sırasında yer tutan Türkiyə Ordu modelini seçib. Ordumuz qabaqcıl islahatların nümunələrinin təcrübəsini alıb. Belə olduğu halda, Ordumuzun siyahıda aldığı yerin üstündə öz yüksək mövqeyini tutacağı şübhəsizdir. Bu həm bizim dostlarımız üçün, həm də düşmənlərimiz üçün bir mesajdır. Azərbaycana ən nüfuzlu inkişaf etmiş hərbi sənaye komplekslərinin məhsulları gətirilir. Bunların içərisində ilk sırada Türkiyə dayanır. Türkiyə hərbi sənaye kompleksinin bütün zirehli texnika istehsalı -tanklar, zirehli maşınlar, pilotsuz uçuş aparatları və sair elə bir sahə yoxdur ki, dünyanın inkişaf etmiş ölkələrinin hərbi sənayesi ilə rəqabət apara bilməsin.

Bizim hərbi texniki əməkdaşlıq eyni zamanda İsrailin hərbi sənaye kompleksi ilə aparılır. Bundan başqa, 10-a yaxın ölkə ilə bu sahədə əməkdaşlıq qurulub. Ali Baş Komandanın Şuşada Ulu Öndərin 100 illiyi ilə bağlı xalqa müraciətində -"Azərbaycan Orduna nə lazımdırsa, onu da edəcəyik" söyləməsi Silahlı Qüvvələrimizin gücləndirilməsinin prioritet olduğunu göstərir. Ona görə də dostlarımız sevinir, düşmənlərimiz məyus olur. Azərbaycan Ordusunun inkişafının təmin edilməsi təhlükəsizliyin təminatı, bölgədə sülhün qoruyucusu olmaq əzmində olduğunu ifadə edir. Azərbaycanın yolu bölgədə sülhün yaradılması, iqtisadi potensialın yüksəlməsi, erməni işğalı, vandallığı nəticəsində dağıdılan ərazilərimizin bərpası, infrastrukturun yenidən qurulması yoludur. Azərbaycan Ordusunun inkişafı regionun təhlükəsizliyi baxımından əsas faktor kimi qəbul edilməlidir. Silahlı Qüvvələrimizin inkişafı heç bir ölkənin işğalı üçün nəzərdə tutulmayıb. Güclü Azərbaycan Ordusu sülhün bərpası və davamlılığının qarantı kimi qəbul olunmalıdır. Qardaş Türkiyə ilə imzalanan Şuşa Bəyannaməsini də nəzərə alsaq bu, Azərbaycanın gücünü qat-qat artırır.



**Elxan Şıxəliyev, hərbi ekspert:**

...Nəzərə alsaq ki, Azərbaycan Silahlı Qüvvələrinin komandir heyətinin 90 faizi və şəxsi heyətin 70 faizinin müharibə təcrübəsi var, bu faktor da ordumuzun gücünün göstəricisidir. Müharibədən sonra əlavə birliklər yarandı. Hər bir birliyin komandirinin sərəncamında komando briqadaları yarandı ki, həmin briqadaların şəxsi heyəti peşəkar hərbçilər olaraq birlik komandirlərimizin vurucu gücünə çevriləcək və hərbi qurumların özlərinin gələcək döyüş tapşırıqlarını yerinə yetirməsinə müsbət təsiri olacaq. Döyüş hazırlıqlarının yüksəldilməsi üçün təlimlərin keçirilməsi, yeni hərbi strukturların yaradılması, komlektləşməsi, modernləşməsi üçün çox böyük addımlar atılır. Bütün hərbi təlimlərdə Azərbaycan silahlı qüvvələrinin hərbçiləri qardaş Türkiyənin hərbçiləri ilə birəbər təcrübə mübadiləsini həyata keçirirlər. Bu da bizim silahlı qüvvələri irəli götürən əsas mərhələlərdən biri olub. Digər mühüm məsələ, başqa ölkələrin hərbi strukturları ilə, xüsusən Pakistan respublikasının hərbçiləri ilə qarşılıqlı təlimlərin keçirilməsidir. Silahlı qüvvələrimiz Gürcüstanda ikitərəfli, üçtərəfli təlimlərdə daim iştirak edirlər. Eləcə də Azərbaycan hərbi-texniki əməkdaşlıq çərçivəsində İsrail ilə əməkdaşlıq edir. Qafqazda Azərbaycan silahlı qüvvələri regionun ən güclü ordusu kimi qiymətləndirilir.

**Emin Həsənli, hərbi ekspert:**

- Orduların gücü ilə bağlı ABŞ-da hazırlanan siyahının tərtib edilməsində müxtəlif amillər var. Burada ordunun maddi-texniki bazası, təchizatı, gücü, sayı, təlimlər və sair amillər mühüm rol oynayır. Hesab edirəm ki, Azərbaycan Ordusu tək bir amilə görə Türkiyə ilə bilikdə dünyanın ən güclü ordusudur. Bu, mənəvi-psixoloji hazırlığa bağlıdır. II Qarabağ müharibəsindən sonra yeni hərbi hissələrin yaradılması, yenidən qurulan ərazilərdə hərbi infrastrukturun, yeni silahların alınması, komando birliklərinin yaradılması peşəkar orduya keçid baxımından əhəmiyyətlidir.

Hərbi qulluqçuların əmək haqlarının artırılması, hərbi-texniki təhcizatın yüksəlməsi, müasir silahların alınması, yeni hərbi hissələr, xəstəxanaların tikilməsi vəsait tələb edir ki, bu da eyni zamanda büdcə artımını tələb edir. Hər bir müstəqil, güclü dövlət üçün ordu mühüm əhəmiyyət daşıyır və Azərbaycan dövləti hər il orduya ayırdığı büdcəni artırır. Ordumuzun güclü olması hər zaman vacibdir. ABŞ-ın ölkələrin hərbi gücünün statistik qiymətləndirməsi ilə bağlı tərtib etdiyi siyahıdan, eləcə də istər ABŞ, istər Rusiya, Çin, Böyük Britaniyanın və ayrı- ayrı ekspertlətin açıqlamasına əsasən Azərbaycan ordusu hər il irəlilədir. Azərbaycan əsgəri Vətən uğrunda öldürməyi və ölməyi bacarır. I-II Qarabağ müharibəsi bunu sübut etdi. Verdiyimiz şəhidlər, qazilərimiz bizim canlı muzeyimizdir, Allah hər birinə rəhmət eləsin. Nə ABŞ-ın, nə İngiltərənin belə bir ordusu yoxdur. Ukrayna ilə müharibədə rus əsgərinin döyüşdən necə yayındıqlarını gördük. İraq müharibəsində bir kola üçün döyüşə getməyən əsgərlər var idi. Bu faktlar hamısı o güclü dövlətlərin ordusunun Azərbaycanla müqayisəyə gəlmədiyini göstərir. Azərbaycan, Türkiyə orduları mənəvi-psixoloji hazırlığa görə dünyanın ilk yerlərini bölüşür. Orduda ən vacib amil insan amili, döyüşçünün Vətənə bağlığı, döyüş ruhudur. İkinci və daha sonrakı amillər silah-sursatla təhcizat və sair məsələlərdir. Azərbaycan əsgərində inam var, ruh var, ölümün gözünə dik baxır. Mübahiz İbrahimov kimi yüzlərlə, minlərlə şəhidlər verdik. Biz ordumuzla qürur duyuruq və dünya orduları sırasında özünəməxsus yeri var.

*✍ Tahirə*

# Macarıstan Azərbaycan qazını ilin sonunadək alacaq

**Macarıstan Azərbaycan qazının ilk 100 milyon kubmetrini ilin sonunadək alacaq. Bunu Macarıstanın xarici işlər naziri Peter Siyarto Moldovada keçirilən mətbuat konfransında deyib. "Bu, Azərbaycanla bir neçə milyard kubmetr qaz satın alınması üzrə uzunmüddətli müqavilə bağlamağa doğru ilk addımdır", - o deyib. Onun sözlərinə görə, qaz tədarükünün həcmi gələcəkdə 1 milyard kubmetrə çatacaq.**

Qeyd edək ki, Azərbaycan Cənub Qaz Dəhlizi ilə Avropaya qaz tədarükünü 31 dekabr 2020-ci ildə başladıb. Bu il Avropaya 12 milyard kubmetr qaz ixrac etmək planlaşdırılır.

Avropa İttifaqı qitənin cənub-şərqində boru kəmərləri sisteminin modernləşdirilməsinə maliyyə yardımı göstərməsə, Azərbaycan qazı böyük həcmdə Avropaya daxil ola bilməyəcək. Macarıstanın Xarici İşlər və Xarici İqtisadi Əlaqələr naziri Peter Siyarto Moldovalı həmkarı Nikolay Popesku ilə danışıqlardan sonra Kişinyovda mətbuat konfransında deyib.



Onun sözlərinə görə, Azərbaycan və Avropa İttifaqı, xüsusən də Macarıstana və Mərkəzi və Şərqi Avropanın digər ölkələrinə tədarük olunacaq qaz ticarətini genişləndirmək barədə razılığa gəliblər. Lakin bunun üçün "çox vacib şərt" var - regionda böyük həcmdə yanacağın qəbul edilməsi üçün gücü hələlik kifayət etməyən müvafiq infrastrukturun hazırlanması.

"Biz Brüsseldən tələb edirik ki, Aİ büdcəsindən Cənub-Şərqi Avropanın qaz tədarükü üçün infrastrukturun inkişafına vəsait ayırsın", - deyə o bildirib. O qeyd edib ki, "Brüssel indiyədək passiv olub" və onsuz belə irimiqyaslı işləri maliyyələşdirmək mümkün olmayacaq. Nazir xatırladıb ki, bundan əvvəl Budapeşt və Bakı arasında uzunmüddətli müqavilə əsasında ildə 1-2 milyard kubmetr qazın tədarükü ilə bağlı razılıq əldə olunub. Hələ fevral ayında Macarıstan hökuməti bu ilin sonuna qədər Azərbaycandan ilk 100 milyon kubmetri almağı gözlədiyini açıqlamışdı.

## Yeri gəlmişkən...

**31 may-3 iyun tarixləri ərzində üç nüfuzlu tədbiri bir brend altında birləşdirən Bakı Enerji Həftəsi keçiriləcək. Bakı Enerji Həftəsi çərçivəsində 28-ci "Xəzər Neft və Qaz" (Caspian Oil&Gas), 11-ci "Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi" (Caspian Power) və 28-ci "Bakı Enerji Forumu" keçiriləcək.**

Dünyanın 30-dan çox ölkəsindən 326 şirkət tədbirlərdə iştirakını təsdiqləyib. Azərbaycanla yanaşı tədbirlərdə ABŞ, Almaniya, Avstriya, Belorusiya, Birləşmiş Ərəb Əmirlikləri, Bolqarıstan, Böyük Britaniya, Vyetnam, Çin, Əlcəzair, Filippin, Finlandiya, Fransa, Gürcüstan, İspaniya, İsrail, İsveç, İsveçrə, İtaliya, Kanada, Küveyt, Qazaxıstan, Macarıstan, Monako, Hollandiya, Norveç, Özbəkistan, Rumıniya, Rusiya, Serbiya, Səudiyyə Ərəbistanı, Sinqapur, Tayland, Türkiyə və Yaponiya da təmsil olunacaq. Tədbir çərçivəsində Xəzər regionunun neft-qaz layihələrinin və regional enerji təhlükəsizliyinin müzakirəsi planlaşdırılır. Sərginin əsas mövzuları arasında neftqaz yataqlarının işlənməsi, neft-qaz hasilatı və nəqli, boru kəmərlərinin təhlükəsizliyinin təmini, neft-qaz emalı, energetika sahəsində tikinti-quraşdırma işləri, innovasiya texnologiyaları, maliyyə və hüquqi xidmətlər, kimyəvi sənaye mövzuları yer alır.

# Tədris müddəti dəyişdirilir?!

## Layihə

***Bu yaxınlarda elm və təhsil naziri Emin Əmrullayev keçirdiyi brifinqdə tədris müddətinin dəyişdirilməsi ilə bağlı suallara cavab verib. Onun tədris müddətinin dəyişdirilməsi ilə bağlı təklifi dəstəkləməsi geniş müzakirələrə səbəb olub. Nazir ümumilikdə tədris müddətinin azalmasının tərəfdarı olmadığını bildirib: "Etiraf edək ki, uşaqlar indi daha az məktəbə gedir. Misal olaraq, 10 il hər həftəsonu məktəbə getməklə indiki uşaqlardan 2 il artıq tədris almışam". E. Əmrullayevin sözlərinə görə, tədris ili nə qədər uzun olarsa, istirahət günlərini çıxmaqla uşaqların gələcəyi üçün daha yaxşı addımdır:***



"İnkişaf etmiş ölkələrdə tətillər yayda yox, qışdadır. Bizdə isə 3 aylıq tətil müddəti var. Təhsil işçisi olaraq bildirim ki, tədris müddəti nə qədər çox olsa, o qədər yaxşı tədris olar. Fikrimcə, məktəblərdə sentyabrın 1-dən tədrisin başlaması daha uyğun olardı. Bu, sadəcə istəkdir".

Qeyd edək ki, "Ümumi təhsil müəssisələrində tədris ilinin müddəti"nin təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2014-cü il 30 oktyabr tarixli 362 nömrəli qərarı ilə 2015-ci ildən etibarən ümumtəhsil məktəbində dərslər sentyabrın 15-də başlayıb, iyunun 14-də bitir. Dəyişikliyin əsas məqsədi şagirdlərin təlim yükünün azaldılması, proqram materiallarını səmərəli mənimsəmələri üçün əlverişli təhsil mühiti yaradılması göstərilib.

Fövqəladə hadisələrlə bağlı (hərbi vəziyyət, zəlzələ, daşqın, kütləvi xəstəlik və s.) respublikanın bütün ərazisində tədris ilinin müddətində və tətil günlərində dəyişikliklər Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, bu və ya digər səbəbdən ayrı-ayrı ümumi təhsil müəssisələrində isə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin əmri əsasında həyata keçirilir. Amma dərs ilinin müddəti 9 ildir ki, dəyişdirilməsinə baxmayaraq, məsələ ilə bağlı narazılıqlar bitmir. Belə ki, dəfələrlə dərs ilinin yenidən sentyabrın 1-də başlaması müzakirə olunub və bu qaydanın yenidən tətbiq edilməsi təklif edilib. Bununla belə, bu təklif ictimaiyyət arasında fikir müxtəlifliyinə səbəb olub. Belə ki, bir qisim mütəxəssis dərs ilinin sentyabrın 1-də başlamasının tərəfdarı olsa da, bəziləri buna qarşı çıxır. Bəs, görəsən, tədris ilinin başlanılma müddətinin dəyişdirilməsi nə qədər məqsədəuyğundur? Bu addım təhsil sektoruna necə təsir göstərə bilər?

■ **Mövzu ilə bağlı təhsil eksperti Nadir İsrafilov bizimlə söhbətində bildirib ki, Azərbaycanda dərs ilinin sentyabrın 1-dən başlanılıb mayın 31-də başa çatması bir ənənə olub:** "Əslində dərs ilinin müddətinin dəyişdirilməsi, bu dəyişiklik edilən vaxtda da xeyli müzakirələrə səbəb olub. Xatırlayırsınızsa, hətta bununla bağlı petisiya da imzalanıb. Nazirin bunu yenidən gündəmə gətirməsi isə ona əsas verir ki, bu məsələ yaddan çıxmayıb. Hesab edirəm, tədris ilinin başlanma və başaçatma müddətini sovet ənənəsindən uzaqlaşmaq üçün dəyişmək düzgün deyildi. İndi nazirin bu məsələni dilə gətirilməsi müsbət haldır. Amma onun fikri cəmiyyət tərəfindən də düzgün anlaşılmayıb. Nazir çıxışında əslində tədris müddətinin qısaldılmasını yox, daha da uzadılmasını nəzərdə tuturdu. Azərbaycanda tədris müddəti həftədə 34-35 saatdır. Dünya ölkələrində isə bu rəqəm 40 saata yaxındır. Nazirin dediyindən belə anlaşılır ki, biz dünya standartlarına çatmaq üçün tədris ilini uzatmalıyıq. Yəni, dərsləri sentyabrın 1-də başlayıb iyun ayının 14-də başa çatdırmalıyıq".



**Nadir İsrafilov,**
təhsil eksperti

> *"Tədris ilinin başlanma və başaçatma müddətini sovet ənənəsindən uzaqlaşmaq üçün dəyişmək düzgün deyildi*

N.İsrafilov vurğulayıb ki, amma bu müddətin dəyişməsinin tədrisin keyfiyyətinə heç bir təsiri yoxdur: "Təcrübə göstərdi ki, tədris müddətinin müddətinin dəyişdirilməsi Dövlət İmtahan Mərkəzinin də imtahan müddətini dəyişməsinə səbəb oldu. Yəni əlavə problemlər yaratdı. Mənim fikrimcə, tədris ilinin dəyişdirilməsi təhlil edilməlidir ki, biz bu dəyişiklikdən nə qazandıq? Nazirliyin Təhsil İnstitutu bunu araşdırmalıdır. Mənim şəxsi qənaətimə görə, biz heç nə qazanmadıq. Bu məsələ ictimai müzakirəyə çıxardılarsa, dərslərin sentyabrın 1-dən başlanılmasını daha çox insan dəstəkləyəcək. Ona görə nazirlik təklifləri ümumiləşdirib öz mövqeyini də əlavə edib hökumətə təqdim edə bilər". N.İsrafilov həmçinin qeyd edir ki, may ayı başlayandan məktəblərdə uşaqların davamiyyəti aşağı düşür: "Bilirik ki, bu ərəfədə Dövlət İmtahan Mərkəzi imtahanları keçirir, bundan sonra şagirdlərin dərsə getməyə bir marağı qalmır. Ona görə də fikrimcə, dərslər sentyabrın 1-də başlayıb mayın sonunda başa çatsa daha yaxşıdır".

■ **Məsələyə münasibət bildirən təhsil eksperti Elşən Qafarov da tədris ilinin uzadılmasını, yəni sentyabr ayının 1-i başlayıb, iyunun 14-də bitməsinin daha doğru olacağını hesab edir:** "Tədris ili müddəti ilə əlaqədar hər il müəyyən müzakirələr aparılır. Bu hal Azərbaycanda tədris ilinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması ilə bağlıdır. Beynəlxalq təcrübədə təhsili inkişaf etmiş ölkələrin əksəriyyətində tədris ili 34-36 həftədir. Bizdə isə tədris ilinin müddəti Nazirlər Kabinetinin 24 fevral 2020-ci il qərarı ilə tənzimlənir.

Azərbaycanda tədris ilinin müddəti 34 həftə olaraq təyin edilib. Lakin elm və təhsil nazirinin bir neçə gün öncə brifinqdə tədris ili müddəti ilə bağlı səsləndirdiyi fikir cəmiyyətdə və mətbuatda düzgün qarşılanmayıb. Nazir deyib ki, bu məsələnin dəyişdirilməsi müzakirə olunmur. Amma təhsildə işləyən şəxs kimi mən də, tədris ilinin sentyabr ayının 1-dən başlamasının tərəfdarıyam.

Lakin mənim şəxsi fikrimə qalarsa, tədris ilinin müddəti 36 həftəyə çatdırılsa, daha məqsədəuyğun olar. Tədris ilinin sentyabrın 1-dən iyunun 14-nə qədər olması daha optimal variantdır. Bunun üçün tədbirlər görülməlidir. Hazırda tədris ilinin müddəti 34 həftədir və dərslərin başlaması 1 sentyabra təyin edilərsə, tədris ilinin müddəti 36 həftəyə çataraq beynəlxalq tələblərə uyğunlaşdırılmış olar. Hesab edirəm ki, belə addımın atılması daha yaxşıdır".

■ **Təhsil eksperti Elçin Əfəndi də tətil müddətinin 8 həftə olmasının, tədris ilinin sentyabr ayının 1-də başlayıb, iyunun 30-da bitməsinin tərəfdarıdır. Onun sözlərinə görə, bəzi inkişaf etmiş ölkələrdə şagirdlərə verilən tətil müddəti qısa olur:**

"Mövcud tədris ili dövrü 15 sentyabr-14 iyun tarixlərini əhatə edir. Burada demək olar ki, şagirdlərə, eyni zamanda tələbələrə 3 aylıq istirahət dövrü var. Düşünürəm ki, biz dünyanın əksər ölkələrinə baxsaq, oradakı təhsil dövrü ilə bizim təhsil dövrü arasında böyük fərq olduğunu görə bilərik. Bəzi inkişaf etmiş ölkələrdə, məsələn, Yaponiya, Sinqapur, Avropa ölkələrindən bir çoxunda şagirdlərə verilən tətil müddəti qısa olur. Nəticə etibarilə tətil müddəti bizdə 12 həftəlik dövrü əhatə edirsə, orada 7-8, bəzilərində 4-5 həftəlik dövrü əhatə edir.

Bu nöqteyi-nəzərdən tətil dövrünün qısaldılması şagirdlərin prosesə daha tez adaptasiya olmasına gətirib çıxara bilər. Sentyabr ayının 15-i dərslər başladıqda biz onu müşahidə edirik ki, hətta sentyabrın sonuna qədər davamiyyət tam qaydasına düşmür. Bəziləri istirahətdən geri qayıtmır, bəziləri isə 1 həftə gecikmə ilə qayıdır. Təbii ki, onların 15 gün ərzində prosesə qoşulmaları müəyyən qədər vaxt aparır. Bu da keyfiyyət göstəricilərinin aşağı olmasına gətirib çıxarır. Hesab edirəm ki, biz tədris ilinə sentyabr ayının 1-dən başlasaq və prosesi iyun ayının 30-da yekunlaşdırsaq, itirdiyimiz günləri bərpa edə bilərik. Fikrimcə, bu amili nəzərə alsaq, 7-8 həftəlik tətil dövrü abituriyentlər, şagirdlər, eyni zamanda tələbələr üçün kifayət qədər uyğun olar. Amma bununla paralel təhsilin keyfiyyət göstəricilərini də nəzərə almalıyıq. Dərs vəsaitləri şagirdlərin bilik və bacarıqları baxımından daha uyğun olmalıdır. Eyni zamanda müəllimlərin keyfiyyət göstəriciləri yüksək olmalıdır".

■ **Mövzu ilə bağlı Milli Məclisin Elm və təhsil komitəsi sədrinin müavini Musa Qasımlı da bildirib ki, dərs ilinin sentyabr ayının 1-də başlayıb, mayın sonlarında bitməsi daha məqsədəuyğundur:** "Heç kimə sirr deyil ki, tədris ili iyunun 15-də başa çatsa da, may ayının ortalarından sonra məktəblərin yuxarı siniflərində dərslər demək olar keçirilmir. Bunun da bəlli səbəbləri var. Ali məktəblərə imtahan vermiş abituriyentlər yenidən məktəbdə parta arxasına gəlmirlər. Belə vəziyyətdən çıxış yolu nədir? Hesab edirəm ki, ilk növbədə tədris ili 1 sentyabr tarixindən başlamalı və may ayının sonlarında başa çatmalıdır. Əgər bu qayda tətbiq olunarsa, şagirdlərimiz daha çox məktəbdə iştirak edər, nizam-intizam yaranar və dərslərin keyfiyyəti yaxşılaşar".

✍ ***Sevinc***

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi
Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ "Artıq "Dövlət satınalmaları haqqında" yeni qanun layihəsi hazırdır və təqdim olunub". Bunu iqtisadiyyat nazirinin müavini Elnur Əliyev deyib. Nazir müavini bildirib ki, bu sahədə problemlər yeni qanunla aradan qaldırılacaq: "Yeni qanun layihəsi olduqca proqressivdir. Qanun layihəsi aidiyyəti qurumlara təqdim edilib".

---

■ Azərbaycan Ordusunun əsgəri ildırım vurması nəticəsində ölüb. Hadisə Gədəbəy rayonunda yerləşən "N" saylı hərbi hissədə qeydə alınıb. Hərbi hissənin əsgəri, Bakı şəhər sakini, 2003-cü il təvəllüdlü Davud Fuad oğlu Məmmədli postda olan zaman onu ildırım vurub. Əsgər aldığı xəsarətlərdən hadisə yerində ölüb.

---

■ Ötən il 1384,9 mln. manat büdcə kəsirini maliyyələşdirmək üçün daxili borclanma hesabına 976,3 mln. manat, özəlləşdirilmədən 115,4 mln. manat, xaricdən cəlb edilən kreditlər hesabına isə 259,7 mln. manat vəsait yönəldilib. Qeyd edək ki, ötən il 33,5 mln. manat vəsait dövlət büdcəsinin sərbəst qalığı hesabına ötürülüb.

---



■ Ölkəmizdə vərəm xəstələrinin sayı ilə bağlı kritik vəziyyət yoxdur. Bunu TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanov deyib. O bildirib ki, hazırda ölkəmizdə vərəm xəstələri az sayda olsa da, bu xəstələrin müalicəsi ölkə səhiyyəsi üçün əhəmiyyətlidir.

---

■ Qarabağ Zəfəri ilə türk dünyası birlik və həmrəylik nümunəsi göstərdi. Bu barədə Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altun bildirib. O qeyd edib ki, Qarabağ zəfəri başda Azərbaycanın olmaqla, həm də bütün türk dünyasının zəfəridir. Onun sözlərinə görə, Türkiyə Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə münasibətlərini daha da dərinləşdirəcək.

---

■ Müdafiə Nazirliyinin Hərbi-Texniki Təchizat Baş İdarəsinə rəis təyin olunub. Aqil Qurbanov Prezident İlham Əliyevin 27.02.2023-cü ildə imzaladığı Sərəncamı ilə müdafiə nazirinin hərbi-texniki təchizat üzrə müavini - Hərbi-Texniki Təchizat Baş İdarəsinə rəis təyin edilib. Qeyd edək ki, Aqil Qurbanov ötən ilin sonunda müdafiə nazirinin hərbi-texniki təchizat üzrə müavini vəzifəsinə təyin olunmuşdu.

---




■ Ötən il Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) büdcəyə ödədiyi mənfəət vergisinin həcmi məlum olub. Ötən il vergi orqanlarının xətti ilə dövlət büdcəsinə daxil olan vəsaitin 8136,3 milyon manatı və ya 52,3 faizi qeyri-neft sektorunun, 7406,6 milyon manatı və ya 47,7 faizi neft sektorunun payına düşüb. Neft sektoru üzrə vergi daxilolmalarının 27,2%-i və ya 2012,7 milyon manatı SOCAR-ın payına düşüb.

---

■ Ötən il xarici yardımlar üzrə xərclər üçün 11,0 milyon manat məbləğində vəsait sərf olunub. Bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında müzakirə edilən "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat"da yer alıb.

# Anesteziya dərmanları depressiyanı azaltmağa güclü təsir göstərmir

***Tibb sahəsində alimlərin son tədqiqatları göstərib ki, ketamin və digər anesteziya dərmanları depressiyanı azaltmaqda o qədər də təsirli deyil. Onlar bildiriblər ki, psixoaktiv dərmanın təsiri onun beyindəki bioloji təsirinə əsaslanmaya bilər. AZƏRTAC "Science" jurnalında dərc olunmuş məqaləyə istinadla bildirir ki, insanların ruhunun öz bədənlərindən ayrıldığını hiss etmələrinə səbəb olan güclü bir anestezik vasitə olan ketaminin daha çox ənənəvi müalicə üsullarını müvəffəqiyyətsiz sınaqdan keçirmiş və depressiyadan əziyyət çəkən insanların müalicəsinə kömək edə biləcəyi məlum olub.***



Ancaq bununla bağlı bir sıra suallar da meydana çıxıb. Bu dərmanın beyinə bəzi molekulyar təsirləri varmı? Hələ nəzərdən keçirilən yeni bir araşdırmada tədqiqatçılar həmin suala unikal bir şəkildə cavab tapmağa çalışdılar. Onlar könüllülərə ümumi anesteziya altında olarkən ketamin veriblər. Bu yanaşma subyektlərin depressiyasını yüngülləşdirib, lakin digər anesteziya dərmanlarından daha təsirli olmayıb. Müəlliflər bunu ketaminin depressiyaya təsirinin az olması ilə izah ediblər.

Ketaminin subyektiv təcrübəsini dərmanın biokimyəvi təsirindən ayırmaq üçün Stenford Universitetinin tədqiqatçıları ümumi cərrahiyyə əməliyyatına hazırlaşan, yüngül və orta dərəcəli depressiya keçirən 40 iştirakçını cəlb ediblər. Alimlər könüllülərə anesteziya altına alındıqdan dərhal sonra, lakin əməliyyatdan əvvəl ketamin və ya salin veriblər. Bu, onları hər hansı psixi və ya dissosiativ təsirlərə qarşı keyidib. Sonra növbəti 3 gün ərzində tədqiqatçılar iştirakçıların depressiya əlamətlərini araşdıraraq, onları kədər, iştahasızlıq və yuxusuzluq kimi amillərə görə qiymətləndiriblər.

Prosedurlardan sonra iştirakçıların, təqribən, 40 faizi ketaminin "plasebo effekti" verdiyini bildirib. Hər iki qrup depressiya cədvəlində 15 ballıq azalma yaşayıb və xəstələrin təxminən 40 faizi infuziyadan 3 gün sonra hələ də 12 baldan çox azalma hiss ediblər, yəni depressiya baxımından remissiyada olublar. Mümkün bir şərh, anesteziyanın özünün depressiyanı aradan qaldırmasıdır. Digər tədqiqatlarda anesteziyanın depressiyaya kömək etdiyi göstərilib. Bununla belə, müəlliflər qeyd edirlər ki, bu zaman istifadə edilən anesteziyanın dozaları digər antidepressiya tədqiqatlarında istifadə edilənlərdən xeyli aşağıdır.

Stenford Universitetindən anestezioloq və tədqiqatın həmmüəllifi Tereza Liinin sözlərinə görə, bütün bunlar onu göstərir ki, nə ketamin, nə də anesteziya öz-özlüyündə depressiyanı azaltmaq üçün çox təsir edə bilməz. Bunun əvəzinə, sadəcə olaraq mürəkkəb, nizamlı müalicə prosedurunun özündən keçmək lazımdır. Həkimlər və psixiatrlarla təkbətək qarşılıqlı əlaqə bu vəziyyətdə olan insanlara daha çox fayda verir. Yalnız bu sınaqda iştirak etməklə, həm ketamin, həm də plasebo qruplarının iştirakçıları yaxşılaşacaqlarına ümid edə bilərlər.

# 105 yaşlı Cümhuriyyət

**_Azərbaycan Respublikası dövlət, xalq kimi bu gün varisi olduğu Azərbaycan Demokratik Cümhuriyyətinin 105-ci ilini qeyd edir. Əsrdən çox tarixi keçmişə sahib olan Azərbaycan Cümhuriyyət irsinin araşdırılması, aparılan təhlillər həmin tarixin ciddi şəkildə öyrənilməsi zərurətini ortaya qoyur. Azərbaycan Demokratik Cümhuriyyəti 23 aylıq fəaliyyəti ilə əslində, bugünün reallığına işıq salır, bir daha dövləti, millət, xalqı qarşısında mühüm vəzifələr qoyur. Bu istiqamətdə "Həftə içi" qəzetinə müsahibə verən tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədova tarixi faktlarla Azərbaycan Demokratik Cümhuriyyətinin yaranışını və əhəmiyyətini təhlil edib._**



**Firdovsiyyə Əhmədova,**
tarix üzrə fəlsəfə doktoru

## Müsahib

***- 1918-ci il may ayının 28-də Azərbaycan Milli Şurası "İstiqlaliyyət Bəyannaməsi" ilə Azərbaycanın şimal torpaqlarında Azərbaycan Demokratik Cümhuriyyəti yarandığını elan etdi. Xalqın öz dövlətini qurması, milli-mənəvi dəyərlərini yaşatması, tanıtması baxımından bu sənəd ona hansı haqqı, imkanları tanıtmış oldu?***

- 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası tərəfindən qəbul olunmuş "İstiqlal Bəyannaməsi" ilə Azərbaycan xalqı bir əsrdən artıq itirilmiş dövlətçiliyini yenidən bərpa etmiş oldu. Faktiki olaraq ilk dəfə müsəlman Şərqində, türk aləmində respublika quruluşlu dövləti yaradan Azərbaycan xalqı oldu. "İstiqlal Bəyannaməsi"ndə həm də bu dövlətin idarə şəkli və idarəetmə prinsipləri müəyyənləşirdi. Azərbaycan hakimiyyəti həmin sənəddə son dərəcə lakonik şəkildə beynəlxalq aləmlə münasibətlərini, o cümlədən qonşularla münasibətin dinc yanaşı yaşamaq prinsipini təsbit etdi. Eyni zamanda, öz ərazisində bütün vətəndaşlarına heç bir sosial, silki, dini, milli ayrı-seçkilik qoymadan bərabərhüquqluluğunu təmin etmiş oldu. Yəni bu bəyannamədə dövlətin prinsipləri müəyyənləşdi. 23 ay ərzində Azərbaycan Cümhuriyyəti hakimiyyəti həmin prinsiplərin əməli şəkildə işləməsi üçün bütün səylərini səfərbər etmiş oldu. Faktiki olaraq həmin "İstiqlal Bəyannaməsi" ilə Azərbaycan xalqının Cənubi Qafqazda, ona məxsus olan ərazilərdə dövlət idarəçiliyini, dövlətçilik quruluşunu dünyaya bəyan etdi. Söz azadlığı, vicdan azadlığı, bütün vətəndaşların sərbəst fəaliyyətinə imkanların yaradılmasına əsas verən həmin prinsiplər sonradan hakimiyyət tərəfindən qəbul olunmuş qərar, sərəncam, parlament tərəfindən qəbul olunmuş qanunlarla icraedici bir mexanizmin işləməsinə zəmin yaratmış oldu. Bu baxımdan "İstiqlal Bəyannaməsi" faktiki olaraq Azərbaycan xalqına suveren haqq verirdi, beynəlxalq aləmdə müstəqil, suveren yaşamaq üçün iqtidarlı olduğunu bəyan etmiş olurdu. Məhz bu haqdan da çıxış edərək, istər sonrakı Azərbaycan hökumətlərinin fəaliyyətində, istərsə də qanunverici qurum kimi parlamentin fəaliyyətində əsas prinsip Azərbaycan xalqının tərəqqisinə, onun maraqlarının, mənafeyinin qurulmasına yönəlmişdi.

"İstiqlal Bəyannaməsi"nin qəbulundan az sonra, qısa müddət ərzində bir neçə dövlət quruculuğu üçün zəmin olan qərarlar qəbul edildi. Onlardan biri türk dilinin dövlət dili elan olunması idi. Digər tərəfdən, Çar Rusiyası dönəmində dəyişdirilən Azərbaycan torpaqlarının adları bərpa edilirdi. Məktəblərin milliləşməsi, müəllim və dərsliklərlə təmin olunması yönündə addımlar həyata keçirilirdi. Ümumiyyətlə, Bakı uğrunda savaşın getdiyi bir dönəmdə, Azərbaycan dövlətçiliyi üçün çox mühüm mərhələdə Azərbaycan Hökuməti məhz milli-mənəvi məzmunlu qərarlar qəbul etməklə milli dövlətçilik quruculuğu sahəsində addımlar atırdı.

***- Azərbaycan Demokratik Cümhuriyyəti yarandığı gündən istər daxildəki əks-qüvvələr, istərsə də imperialist qüvvələr tərəfindən hansı məhdudiyyətlərlə, təsirlərlə üzləşdi və böyük dövlətlərin Azərbaycana münasibəti necə idi?***

- Azərbaycan Cümhuriyyəti yaranmamışdan əvvəl, artıq 1917-ci il Fevral inqilabından sonra Azərbaycan Muxtariyyəti Hərəkatı başlayandan ölkə daxilindəki əks-qüvvələr birləşmişdilər. Bir tərəfdən, Vahid Bölünməz Rusiya tərəfdarı olan qüvvələr - menşevik eserlər, digər tərəfdən, Azərbaycan torpaqları da daxil olmaqla, çox geniş bir ərazidə "böyük Ermənistan" yaratmaq xülyası ilə yaşayan "daşnaksutyun" partiyası, erməni milli şuraları Azərbaycan muxtariyyətinə qarşı düşmən mövqedən çıxış edirdi. Rusiyada bolşeviklər hakimiyyətə gəldikdən sonra, bu ərazilərə Sovet Rusiyasının bir parçası kimi baxırdılar və bolşevik Şaumyana Cənubi Qafqazda sovet hakimiyyəti qurmaq tapşırılmışdı. O da qərargahını Tiflisdə yox, elə Bakıda yerləşdirmişdi.

1918-ci ilin yazında baş verən qırğınlar birbaşa Azərbaycan Muxtariyyətinin sosial bazasını, milli hərəkatın qüvvələrini məhv etməyə yönəlmiş, Azərbaycan xalqına qarşı soyqırımı kimi tarixə daxil olub. Bu baxımdan Şimali Azərbaycan daxilində Azərbaycan muxtariyyətinə qarşı olan qüvvələr məhz bolşeviklərin və daşnakların işbirliyi ilə 1918-ci ilin yazında müsəlmanlara qarşı qətliamlarla nəticələndi. Azərbaycan maraqlarına qarşı olan qüvvələrin işbirliyi nəticəsində Bakı bir qan-fitnə ocağı olmuşdu. Osmanlı dövlətinin regionda hərbi, siyasi, diplomatik baxımdan üstün olduğu bir dövrdə istər Cənubi Qafqaz Federativ Demokratik Respublikasının yaranması, sonra üç Cənubi Qafqaz respublikasının meydana çıxması bölgədə yeni bir situasiya yaratdı. Faktiki olaraq regionda Birinci dünya müharibəsinin düşmən düşərgələrində olan iki blokun üzvləri hərbi, siyasi, diplomatik baxımdan aktiv idilər. O cümlədən, Böyük Britaniya hərbi ekspedisiyası bölgədə idi və hər vəchlə Bakı rayonuna daxil olub neft hövzəsini ələ keçirmək istəyirdi. Yəni Qafqaz regionu, Xəzər hövzəsi uğrunda beynəlxalq rəqabət gedirdi. Digər tərəfdən, Böyük Britaniya Antanta blokunda müttəfiq olmuş, amma Cümhuriyyətin elan olunduğu dövrdə Çar Rusiyası hakimiyyəti də bu əraziləri yenə də Rusiyanın bir parçası olaraq görürdü. Şaumyanın rəhbərlik etdiyi Bakı Xalq Komissarları soveti də mübarizəsini bu zəmində aparırıdı. Ona görə də Bakı uğrunda savaşda da Azərbaycan və Osmanlı hərbi hissələrindən təşkil olunmuş Qafqaz İslam Ordusuna qarşı Bakı bolşeviklərinin ordusu mübarizə aparırdı. Faktiki olaraq Osmanlı qüvvələrinə qarşı mübarizədə daşnaqlar, menşevik-eserlər eyni cəbhədə idilər. Digər tərəfdən, Osmanlı dövlətinin müttəfiqi olan müharibənin aparıcı dövlətlərindən biri olan Almaniya da hərbi ekspedisiyası, diplomatik siyasi baxımdan bölgədə aktiv idi. Nəticə etibarilə regionda özünün varlığını saxlamaq baxımından Gürcüstanın müstəqilliyinin elan edilməsində təşviqedici bir rol oynadı. Bütün böyük dövlətlər Avropanı Avrasiya ilə birləşdirən strateji yollara sahib Azərbaycan, Bakı nefti uğrunda mübarizə aparırdı. Təsadüfi deyildi ki, Brest-Litovski sazişində Sovet Rusiyası ilə Almaniya arasında bağlanan sövdələşmədə Rusiya Bakı neftinin dörddə birini Almaniya bu şərtlə verirdi ki, Almaniya Osmanlı qüvələrinin irəliləməsinin qarşısını alsın. O cümlədən İran Azərbaycan adında muxtariyyət tanımırdı. Həmçinin Cümhuriyyət elan olunandan sonra da İran tərəfi belə bir adda dövləti tanımadığını bildirmişdi. İran Azərbaycan torpaqlarına qarşı böyük ərazi iddiaları ilə çıxış edirdi. Bu əraziləri də özünün bir parçası olaraq görürdü. Bütün bunlara - təsirlərə, təzyiqlərə baxmayaraq, Azərbaycan öz qonşuları ilə dinc yanaşı yaşamaq prinsipinə əməldə riayət edib. Azərbaycan Gürcüstanla Denikin təhlükəsinə qarşı bir hərbi pakt imzalamışdı, eləcə də Şimali Qafqaz Dağlıq xalqları ilə çox isti münasibəti var idi. Şimali Qafqaz Dağlıq Respublikasının mövcudluğu üçün maliyyə dəstəyi vermişdi. Digər tərəfdən, İranla 1920-ci il martın 20-də artıq sülh və dostluq müqaviləsinin imzalanmasına nail olundu. Azərbaycanın əzəli torpaqlarında - İrəvan Quberniyasının iki qəzası əsasında yaradılmış Ararat respublikası təcavüzkar siyasəti aparırdı. Bu respublika Azərbaycan Cümhuriyyəti ərazisində müsəlman azərbaycanlılara qarşı qanlı qırğınlar törədən, amma özünü Ararat respublikasına tabe olmayan kimi elan edən qaniçən dəstə başları Andranik, Nijdelərin törətdiyi qətliamlar regionda sülhün sabitliyin yaranmasına imkan verməyən aparıcı amillərdən idi.

Bu baxımdan Ermənistanın təcavüzkar siyasəti 1918-1920-ci illərdə Cümhuriyyət hakimiyyətinə, Azərbaycan torpaqlarına qarşı yönəlmişdi. Bütün bu təzyiq və təsirlərin qarşısında Azərbaycan Cümhuriyyətinin nəinki yaşaması, eyni zamanda, daha mütərəqqi qərar və qanunların qəbul etməsi, müsəlman, türk dünyasında çox demokratik təsisatların yaratması, son dərəcədə demokratik idarəetmə mexanizminin işləməsi ciddi nailiyyət idi. Beləliklə, 23 ay ərzində Cümhuriyyət qurucuları əsrlərə söykənən böyük demokratiya yolu qəth etmiş oldular.

***- Azərbaycan Demokratik Cümhuriyyəti Azərbaycanda hansı irsi bünövrənin əsasını qoymuş oldu? Bugünkü varisinə hansı mirası təqdim edib?***

- "İstiqlal Bəyannaməsi"nin elan edilməsindən dərhal sonra həyata keçirilən bütün tədbirlər, qəbul edilən qərarlar faktiki olaraq Azərbaycanın gələcək respublika formasında Azərbaycan adında dövlətçiliyinin yaşaması üçün təməl addımlar atmışdı. Bu, istər Azərbaycan əraziləri üzərində vahid Azərbaycan hakimiyyətinin bərqərar olunması, eyni zamanda, milli hakimiyyətin bərqərar olunması baxımından çox əhəmiyyətlidir. Azərbaycanlılar tarixən Cənubi Qafqazın 150 min kvadrat-kilometrində yaşamışdılar. Amma qonşuların əraziləri mübahisəli hesab etmələri baxımından 96 min kv.km ərazi mübahisəsiz, 114 min kv.km ərazi isə mübahisəli hesab olunurdu.

Bütövlüklə bu günə bizə çatan miras həm respublika quruluşudur, həm Azərbaycan adı, hakimiyyəti altında mövcud olmuş ərazilərdir. Söz, mətbuat, vicdan azadlığı, mətbuat üzərindən senzuranın

> *23 ay ərzində Cümhuriyyət qurucuları əsrlərə söykənən böyük demokratiya yolu qət etmiş oldular*

götürülməsi, vətəndaşlıq haqqında qanunun qəbul olunması kimi məsələlər 23 ay ərzində mövcud hakimiyyətin təməl prinsipləri idi. Cümhuriyyət işğal olunandan sonra, Sovet Rusiyasının modelini yaratmağa çalışan bolşevik hakimiyyəti o prinsiplərin əksəriyyətini məhv etsə də, elə məsələlər var idi ki, onları məhv edə bilmədi. Məsələn, Cümhuriyyət dövründə yaradılan Bakı Dövlət Universiteti 105 illik tarixini yaşayır. Bu müddət ərzində Bakı Dövlət Universiteti elmə, mədəniyyətə, təhsilə çox böyük töhfələr verdi. Xaricə təhsil almağa göndərilən 100 tələbənin sonrakı fəaliyyəti, Azərbaycan adına, Azərbaycan xalqına etdiyi xidmətlərin hamısı bir miras, sərvətdir. Eləcə də türk-müsəlman aləmində Avropa tipində qurulan ilk parlament nümunəsi, eləcə də istiqlalçılıq, müstəqil suveren yaşamaq haqqının olması bizə ötürülən mənəvi mirasdır. Yəni 23 aylıq Cümhuriyyət, sonradan Şimali Azərbaycandakı dövlətin 1920-1922-ci illər ərzində Azərbaycan Sovet Sosialist Respublikası statusunda olması və Sovetlər birliyi yaranan zaman SSRİ-nin tərkibində müttəfiq respublika statusunda qalmasını şərtləndirilən zəmin idi.

Azərbaycan xalqı 1991-ci ildə məhz o haqdan çıxış edərək özünü Azərbaycan Cümhuriyyətinin varisi olduğunu Konstitusiya aktında təsbit etmiş oldu. Təbii ki, bu varis 1991-ci ildən bu vaxta qədər tarixi, siyasi, mənəvi baxımdan o mirasa sahib çıxır. Cümhuriyyət qurucularının irsi öyrənilir, Cümhuriyyət tarixini əks etdirən kollektiv nəşrlər, ayrı-ayrı monoqrafiyalar çap olunur, ictimai həyatda rəsmi, qeyri-rəsmi şəkildə Cümhuriyyət günü - müstəqillik günü elan olunaraq qeyd edilir. Eyni zamanda müasir Azərbaycanın dövlət mexanizminin sahələri özlərinin yaratdığı tarixi təməli baxımından mövcudluqlarını Cümhuriyyət dönəmindən götürürlər. Bir də prinsiplər var. 23 ay ərzində demokratik məzmunda elan edilən prinsiplərlə fəaliyyət göstərən Cümhuriyyət var idisə, bu gün də dünyaya açılan müstəqil siyasətini yeritməyə çalışan, öz mövqeyini həm region, həm də beynəlxalq səviyyədə Azərbaycan xalqının maraqları baxımdan ifadə etməyə çalışan varisi var. O zamanın şərtləri ilə XX əsrin sonu, XXI əsrin şərtləri eyni deyil. O dövrdəki texnologiyalar, o dövrdəki mürəkkəb şərait Azərbaycan Cümhuriyyətinin var olması, yaşaması baxımından nə qədər mürəkkəb idisə, 1991-ci ilin varisi, artıq ərazisi BMT səviyyəsində tanınan qəbul edilən dövlətdir. Bütün bunların əsası 1918-ci il mayın 28-də qoyulmuşdu.

***- ADR-in yaranış zərurəti nə idi və niyə qısa ömür yaşadı?***

- Azərbaycan Cümhuriyyəti mövcud regional və beynəlxalq situasiyanın şərtləri daxilində meydana gəlmişdi. İstiqlal, milli məfkurə bir neçə onilliklər qət etmiş bir dəyər idi. Ona görə də milli mətbuat, milli teatr, milli məktəb məhz Azərbaycan milli məfkurəsinin formalaşmasına xidmət edirdi. Azərbaycana xidmət etmək əqidəsi Ilə birləşən həmin ziyalılar nəslinin qarşısında taleyüklü məsələlər dayanırdı. Onlar artıq Cümhuriyyətə qədər bu məfkurənin ictimai-siyasi elita səviyəsində formalaşdırmışdılar və bunu cəmiyyətin alt qatlarına keçirmək üçün fəaliyyətlərini proqram şəkildə mətbuat üzərinən ifadə edə bilirdilər.

1917-ci ildə Cənubi Qafqazın Türk Ədəbi Mərkəziyyət və Müsavat partiyalarının birləşməsi nəticəsində Azərbaycanın milli yöndə maraqlarını təmin edən bir partiya yaranmışdı. Bu baxımdan Cümhuriyyətin elan olunması ərəfəsində həmin insanlar Azərbaycan xalqının iradəsi ilə ümum-Rusiya Müəssislər Məclisinə seçilmiş nümayəndələr, hansı ki, sonralar Zaqafqaziya Seyminin müsəlman fraksiyasında fəaliyyət göstərirdilər, onlar bütün məsuliyyəti öz üzərlərinə götürərək, Azərbaycan Cümhuriyyətinin yaranmasını İstiqlal aktını qəbul etdirməklə dünyaya bəyan etdilər. Bu, bir zərurət idi. Həmin dönəmdə, artıq böyük dövlətlərin maraqları yönündən himayə olunan, təşviq edilən qonşular bu addımları atırdılar.

Cümhuriyyətin qısa olmasını şərtləndirən amillər qeyd etdiyim kimi, xarici maraqlarla bağlı idi. Nəticə etibarilə 1920-ci ilin əvvəlində Şumali Qafqazı tutaraq Cənuba doğru irəliləyən bolşevik hakimiyyəti, Sovet Rusiyası Azərbaycan Cümhuriyyətinin devrilməsində birbaşa rol oynadı. Bakı neftinə sahib olmaq Rusiya iqtisadiyyatı, təsərrüfatı üçün son dərəcə önəmli məsələ idi. Təsadüfi deyil ki, XI ordunun ilk direktivlərində məhz Bakı rayonunu ələ keçirmək tapşırılmışdısa, bu akt həyata keçiriləndən sonra Azərbaycanın İrana qədər olan sərhədlərinə sahib olmaq barədə əmr verilmişdi...

Şimali Qafqazı tutan bolşevik ordusu 5 günlük "ildırımsürətli" hərbi müdaxilə ilə Azərbaycan Cümhuriyyətinə son qoydu. Azərbaycan Cümhuriyyətinin bolşevik hərbi müdaxiləsinə qarşı dura biləcək gücü yox idi. Üstəlik, erməni daşnaqları da həmin dövrdə həm Azərbaycan Cümhuriyyətinə qarşı təcavüzkar siyasət aparır, bolşevik Rusiyası ilə sövdələşərək, Cümhuriyyətin devrilməsi baxımından öz separatçı, təcavüzkar əməllərini həyata keçirdilər. Azərbaycanın yardım üçün müraciət edəcəyi bir beynəlxalq qüvvə yox idi. Cənubi Qafqazı sovetləşdirməyi qarşısına məqsəd qoyan və bu məqsədlə də XI ordu ilə müdaxiləsini həyata keçirən Sovet Rusiyası Azərbaycan torpaqları üzərindən siyasi möhtəkirlik edirdi. Birinci əraziləri sovetləşdirdi, mübahisə predmetinə çevrilən ərazilərdən Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə olundu. Ermənistanda sovet hakimiyyəti elan ediləndə bir sıra Azərbaycan torpaqları Ermənistana bəxşiş edildi və Azərbaycanın iki qəzasında yaradılan Ermənisan yeni ərazilərin hesabına artırıldı. Bu, artıq mərkəzi hakimiyyətin apardığı siyasətin nəticəsi idi.

***- SSRİ dağıldıqdan sonra Azərbaycan özünü Xalq Cümhuriyyətinin varisi elan edib. Sələfimiz müstəqil Azərbaycan Demokratik Cümhuriyyəti öz xələfinə hansı təcrübəni ötürdü?***

- İlk öncə bu miras Azərbaycan adlı Dövlətdir, Respublika quruluşudur. Cümhuriyyət irsinə sahib olmaq müstəqil, suveren hüquqları qorumaq deməkdir. Azərbaycanın ərazi bütövlüyünü təmin etmək deməkdir. Sahiblik bütün sahələrdə özünü göstərməlidir.

XX yüzilin əvvəlindəki Şərqin modern mənzərəsi adlandırılan Azərbaycan Cümhuriyyətinin idarəetmə tərzinə görə son dərəcədə qanunvericilik, parlament mədəniyyəti, siyasi davranış etikası var idi. Cümhuriyyət qurucularını birləşdirən bir dəyər var idi, o dəyər Azərbaycan dövlətçiliyini şəxsiyyətlərin, partiyaların fövqündə tuturdu. Bu dəyər Azərbaycanın Cümhuriyyət qurucularını eyni mübarizə yolunda birləşdirirdi. Biz bu mirasdan iqtisadi, siyasi cəhətdən də istifadə etməyi bacarmalıyıq. Orada məktəb yaşlarından başlayaraq hər kəs o sərvətdən fayda götürə bilər.

**✍ Tahirə Qafarlı**

## Aktual

**_Bu həftənin əvvəlində Prezident İlham Əliyev Litvaya rəsmi səfər etdi. Bir sıra önəmli görüşlər keçirdi. Qeyd edək ki, son aylarda dövlət rəhbərliyi tərəfindən həm Şərq, həm də Qərb dövlətləri ilə sıx təmaslar qurur. Qarşılıqlı səfərlər təşkil edilir. Bütün bu faktlar ölkəmizin beynəlxalq səviyyədə artan rolundan xəbər verir. Milli Məclisin deputatı Bəhruz Məhərrəmov bildirir ki, Litva və Azərbaycan arasında suveren əlaqələr 1991-ci ildən qurulsa da, ölkələrimiz keçmiş İttifaq dövlətləri kimi Sovetlər birliyi zamanından yüksəksəviyyəli münasibətlərə malik olub._**

# Azərbaycanın beynəlxalq əhəmiyyəti artır

Yarıməsrlik İttifaq periodunun ortaq dəyərlərini bölüşmək isə xalqlarımızın daha da yaxınlaşmasına gətirib çıxarıb. Bu gün isə Litva və Azərbaycan müstəqil, inkişaf etməkdə olan dövlətlər kimi yaxın keçmişin təcrübəsinə və yeni dövrün şərtlərinə uyğun şəkildə, beynəlxalq hüququn prinsiplərini rəhbər tutaraq müxtəlif səviyyələrdə əməkdaşlıq edirlər. Məhz bu münasibətlərin davamı olaraq Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığında Litva özünəməxsus rol oynamaqda və əlaqələrin daha da dərinləşməsinə töhfə verməkdədir. Həmçinin Avropa İttifaqı ilə Azərbaycan arasında Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində həyata keçirilən Tvinninq layihələrində rəsmi Vilnüs çox fəal rol oynamışdı.



O qeyd edib ki, müasir qloballaşma prosesində beynəlxalq münasibətlərin xarakterinin, beynəlxalq prioritetlərin sürətlə dəyişdiyi şəraitdə dövlətlər üçün də öncəliklər dəyişə bilir və maraqların yeni situasiyada uyğunlaşdırılması zərurətə çevrilir.

Bu mənada Prezident İlham Əliyevin Litva Respublikasına rəsmi səfəri ölkələr arasında münasibətlərin tam yeni müstəvidə bir daha gözdən keçirilməsi, əlaqələrimizin yeni müstəvidə dərinləşməsi üçün mühüm imkandır.

Ötən il analoji məqsədlə Litva Prezidenti Gitanas Nausedanın Bakıya təşrif buyurduğunu xatırladan Bəhruz Məhərrəmov əlavə edib:

"Səfər çərçivəsində əhəmiyyətli müzakirələrə start verilmiş, iqtisadiyyat və təhsil sahələrində də əlaqələrin gücləndirilməsi qərara alınmışdı. Cəmi bir il sonra, Azərbaycan Prezidentinin cavab səfəri isə Nausedanın ifadə etdiyi kimi, "Azərbaycan ilə Litva arasında əməkdaşlıq münasibətlərinə yeni müsbət dinamika əlavə edəcək".

Gündəm kifayət qədər zəngindir, informasiya texnologiyaları, kibertəhlükəsizlik, bərpaolunan enerji, investisiyalar, nəqliyyat kimi sahələrdə əməkdaşlıq məsələləri, 200-dən çox azərbaycanlı tələbənin Litvada təhsil alması və ölkələrimizin təhsil müəssisələri arasında birgə əməkdaşlığın mövcud olması gündəliyin kifayət qədər zənginliyini göstərir. Prezidentlərin mətbuata bəyanatlarla çıxışlarında da Prezident İlham Əliyevin ifadə etdiyi kimi, "Biz çox ümid edirik ki, gələcək illərdə iqtisadiyyat, ticarət sahələrində də siyasi səviyyədə olduğu kimi işlər sürətlə gedəcək".

Deputatın sözlərinə görə, Bakı-Vilnüs təmaslarında, heç şübhəsiz ki, yeni qlobal qütbləşmə, daha konkret desək, Rusiya-Ukrayna savaşı və nəticədə formalaşan geosiyasi konfiqurasiya müzakirə mövzularından biri olub. Azərbaycanın məsələyə dair mövqeyi aydındır və Bakı yeni periodda dialoq formatına alternativ tanımır. O cümlədən bu dialoq yalnız münaqişələri yox, bütövlükdə bütün qlobal təhdidləri əhatələyir. Sevindirici məqamdır ki, Prezident İlham Əliyevin də bugünkü görüşdə bəyan etdiyi kimi, ən azı Litva və Azərbaycan arasında "bu dialoq konkret nəticələrlə də tamamlanır".

"Litva səfərinin digər önəmli cəhəti də bütün müstəvilərdə olduğu kimi Prezident İlham Əliyevin Vilnüs təmaslarını da Azərbaycanın haqq səsini çatdırmaq üçün uğurlu platformaya çevirə bilməsi oldu. Bakı Aİ-nin Şimal-Şərq

> *Avropa İttifaqı ilə Azərbaycan arasında Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində həyata keçirilən Tvinninq layihələrində rəsmi Vilnüs çox fəal rol oynamışdı*

hüdudlarında bir daha Azərbaycan-Ermənistan sülh danışıqlarının aparılmasının nəticə etibarilə Qafqaza uzunmüddətli sülh gətirəcəyi ümidini bəyan edərək konstruktiv səylər göstərmək iradəsini ifadə etdi. Beynəlxalq norma və prinsiplərdə əhatə olunan sülh niyyətimizlə bərabər, Azərbaycan Prezidenti həm də İrəvanın təcavüzkar mahiyyətini bir daha ifşa edərək bu münaqişənin səbəb olduğu fəlakət - işğal nəticəsində soydaşlarımızın öz doğma torpaqlarından didərgin düşməsi, 30 il işğalda qalmış ərazilərdə demək olar ki, bütün infrastruktur, binalar, o cümlədən tarixi abidələrin işğalçılar tərəfindən dağıdılması barədə müfəssəl məlumat verməklə informasiya savaşında mühüm bir məsafə qət etmiş oldu", - deyə Bəhruz Məhərrəmov vurğulayıb.

**✍ Tahirə**

# Qazanan banklar, itirən vətəndaşdır

***Azərbaycan bankları valyuta mübadiləsi üzrə gəlir marjasını artırıblar. Belə ki, bu ilin I rübündə Azərbaycan bankları ABŞ dollarını, orta hesabla, 1,6966 manatdan alıb, 1,7030 manata satıb. Bu barədə Azərbaycan Mərkəzi Bankının "Pul Siyasəti İcmalı"nda qeyd olunub. Beləliklə, banklar hər 100 dolların alqı-satqısından 64 qəpik gəlir əldə edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 42,2 faiz çoxdur. Xatırladaq ki, 1 il bundan əvvəl banklar dolları 1,6979 manatdan alıb, 1,7024 manata satb, bununla da, hər 100 dolların alqı-satqısından 45 qəpik gəlir əldə edib.***



## Məzənnə

Maraqlıdır, görəsən, ötən illə müqayisədə gəlir marjasında yaranan artım nə ilə bağlıdır? Ümumiyyətlə, bu gün valyuta mübadiləsi zamanı hansısa çətinliklər varmı? Vətəndaşa ölkə xaricinə səfər zamanı maksimum hansı həddə nağd valyuta çıxarmağa imkan verilir?

■ **Məsələni qəzetimizə şərh edən bank və maliyyə məsələləri üzrə ekspert Əkrəm Həsənov bildirib ki, bəzən banklar mövcud şəraitdən sui-istifadə hallarına yol verirlər:**



**Əkrəm Həsənov,**
Bank və maliyyə məsələləri üzrə ekspert

"Biz bilirik ki, ölkədə valyuta əməliyyatlarına qeyri-rəsmi məhdudiyyətlər var. Yəni, bir nəfərə ildə 20 min dollardan çox satmırlar. Bu qanunsuz məhdudiyyətlər olsa da, faktiki olaraq belə hallar mövcuddur. Bu da banklara imkan verir ki, valyuta əməliyyatlarına görə komissiya haqlarını artırsınlar.

Və həm də valyutanın məzənnəsində də daha çox fərq qoya bilirlər. Tutaq ki, bu gün bankların ixtiyarı var ki, valyuta mübadiləsi əməliyyatlarını Mərkəzi Bankın müəyyən etdiyi məzənnədən xeyli baha və ya ucuz aparsınlar. Bu məsələdə banklar sərbəstdir. Vətəndaşların əksəriyyəti isə qeyri-rəsmi əməliyyatlardan adətən ehtiyat edirlər. Məsələn, vətəndaş hansısa əməliyyatı aparmaq üçün banka yaxınlaşır və bank əməkdaşları başlayırlar onu sorğu-sual etməyə. Bu pul səndə hardandır, onu necə əldə etmisən və s. kimi sualları vətəndaşlara ünvanlayırlar. Təbii ki, bu kimi sorğu-sual qanunsuzdur. Amma dövlətin də bu məsələdə öz maraqları var. Dolayı yolla çalışılır ki, vətəndaşlar daha az valyuta alsınlar. Banklar da bundan sui-istifadə edirlər ki, daha çox qazanc əldə etsinlər".

> *"Bankların ixtiyarı var ki, valyuta mübadiləsi əməliyyatlarını Mərkəzi Bankın müəyyən etdiyi məzənnədən xeyli baha və ya ucuz aparsınlar*

> *Bankların valyuta mübadiləsi üzrə gəlir marjasının artması bu qurumların əlavə qazanc əldə etməsindən xəbər verir*

Ekspert hazırda Azərbaycan vətəndaşlarının xaricə səfər zamanı ölkədən çıxara biləcəyi nağd vəsaitin məbləğinə də aydınlıq gətirib. O qeyd edib ki, ölkədən çıxarkən vətəndaşa nağd şəkildə maksimum 10 min dollar çıxarılmasına icazə verilir: "Bu məbləğin gömrük orqanlarında bəyan edilməklə çıxarılmasına icazə var. Amma bank kartları ilə bağlı hansısa məhdudiyyət yoxdur.

Kartla vətəndaş istənilən məbləği ölkədən çıxara bilər, sadəcə o, xaricdə əməliyyat aparan zaman vergi və digər qurumların əməkdaşları tərəfindən hansısa suallarla qarşılaşa bilər. Adətən vətəndaşlar xaricə gedərkən kartda10 min dollara yaxın vəsait aparır. İstənilən halda vətəndaşın xaricdə apardığı əməliyyatlara Azərbaycanda müştərisi olduğu bank da nəzarət edir".

■ **Mövzu ilə bağlı Liberal İqtisadçılar Mərkəzinin sədri, iqtisadçı-ekspert Akif Nəsirli də bizimlə söhbətində qeyd edib ki, bankların valyuta mübadiləsi üzrə gəlir marjasının artması bu qurumların əlavə qazanc əldə etməsindən xəbər verir:**

"Mərkəzi Bankın məlumatına görə, bu ilin I rübündə Azərbaycan bankları ABŞ dollarını orta hesabla 1,6966 manatdan alıb, 1,7030 manata satıb. Banklar hər 100 dolların alqı-satqısından 64 qəpik gəlir əldə edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 42,2 faiz çoxdur. Bilirsiniz ki,



**Akif Nəsirli,**
Liberal İqtisadçılar Mərkəzinin sədri, iqtisadçı-ekspert

hazırda bank sektorunda vəziyyət qənaətbəxş deyil. Hökumət istəyir ki, bankların sağlamlaşdırılmasını həyata keçirsin, bir qrup bank üçün əsl imtahan dövrüdür. Mərkəzi Bank da bankların valyuta dayanıqlığını, maliyyə imkanlarını genişləndirmək məqsədilə onların mənfəətinin artması üçün şərait yaradır. Digər bir tərəfdən də kiçik bankları bağlayırlar. Hazırda ölkədə bağlanılan "Günay Bank"dan sonra 24 bank var. Hesab edirəm ki, ilin sonunadək, təxminən, 4-5 bank da bağlanılacaq. Yaxın gələcəkdə isə ümumiyyətlə, 14 bankı itirə bilərik".

✍ *Sevinc*

# Azərbaycanda diplomların rəngi yoxdur

***Azərbaycanda ali təhsilin mövcud durumu, həmçinin müəllimlərin işə qəbulu və təqaüdə göndərilməsi kimi məsələlər Milli Məclisin Elm və Təhsil Komitəsində müzakirə edilib. "Kənddən gəlib paytaxtda təhsil alıb geri qayıtmaq istəyənlərin sayı azdır". Bunu Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev deyib.***



O bildirib ki, digər tərəfən mətbuatdan da oxuyuruq ki, müəllim peşəsini oxuyanlar arasında ucqar kənd məktəbində işləmək istəyən gənclərin sayı artır: "Hətta ailəsi paytaxtda yaşayanlar könüllü olaraq kənd məktəblərinə getmək istəyirlər". "Ali təhsil müəssisələrində tələbələrin müqavilələrinin müddətinin uzadılması və 60 yaşdan yuxarı şəxslərin sertifikasiyaya hansı formada cəlb edilməsi müvafiq icraedici orqanın qaydalarında nəzərdə tutulub", - Bəxtiyar Əliyev deyib.

O bildirib ki, qanunda norma müəyyənləşdirilir, lakin sonradan qəbul edilmiş qaydalar normaların müxtəlif mənalarda şərh edilməsinə yol açır: "Bu halda vətəndaşlar arasında əsaslı və əsassız narazılıqlar yaranır. Hesab edirəm ki, bu məsələyə də baxmaq lazımdır".

■ **Millət vəkili Etibar Əliyev isə bildirib ki, təhsildə sürətli inkişaf illüziyasından çıxmalıyıq.**

O bildirib ki, 25 il əvvəl təhsil naziri çalışmış şəxslər də deyirdilər ki, təkamül yolunu gedirik: "Amma sıçrayışlı inkişaf yolunu keçmiş təhsil sisteminə malik ölkələr var. Həmin ölkələri nümunə götürməliyik".

Millət vəkili qeyd edib ki, yenə də məktəblərdə şagirdlərin qiymətlərinin şişirdilməsi halları yüksəkdir. "Qırmızı attestat alanların Gədəbəydə 15,34%, Goranboyda 23,5%, İmişlidə 18 %, Qazaxda 12%, Salyanda 13%, Sumqayıtda isə 6,6%-i 0-200 bal toplayıb. Digər tərəfdən hələ də kurrikulum anlayışını təhsil ictimaiyyəti həzm edə bilmir. Deyirlər kurrikulumlar ləğv edilməlidir, dövrün tələblərinə cavab vermir. Bunun məğzi başa düşülmür, əksər müəllimlər belə bunu qəbul etmir".

■ **"Azərbaycanda diplomların rəngi yoxdur. Diplom tələbəyə iş üçün yox, 4 il tədris aldığına görə verilir". Bunu isə millət vəkili Musa Qasımlı deyib.**

O bildirib ki, bir müəssisə rəhbəri işçini işə götürəndə diplomunun rənginə baxmır.

"Burada bir mərhələ bitir, artıq növbəti mərhələ başlayır. Hesab edirəm ki, işçilərin işə götürülərkən imtahan edilməsi müsbət haldır.

Müəssisə rəhbəri deyə bilməz ki, "bacarığın önəmli deyil, diplomun qırmızıdır işə gəl". Musa Qasımlı, həmçinin vurğulayıb ki, bəzi məktəblərdə çalışmanın son yaş həddinə çatmış müəllimlər pensiyaya çıxanda onların fənlərini qeyri-ixtisas sahibləri tədris edir".

"Biz özümüzə sual verməliyik: 65 yaşı çatıb pensiyaya çıxan müəllim o fənni yaxşı tədris edər, yoxsa qeyri-ixtisas sahibi? Hesab edirəm ki, onların müqavilələrinin müddətinin artırılmasında fayda var. Təbii ki, həmin yerə yeni kadrlar gələndə, müqavilənin müddəti dayandırıla bilər", - deyə deputat bildirib.

O bildirib ki, həmçinin əvvəllər ali məktəbi fərqlənmə diplomu ilə bitirənlərin heç bir iş stajı olmadan birbaşa doktoranturaya sənəd vermək imkanı var idi.

"Bu gün təhsillə bağlı 88-dən çox əsasnamə, qayda və təlimat mövcuddur. Onları bir yerə yığsaq, böyük külliyat ortaya çıxar", - Bəxtiyar Əliyev deyib. O bildirib ki, vətəndaşlar hansısa bir məsələ ilə bağlı müraciət edəndə müvafiq icraedici orqandan cavab verilir ki, müraciət hansısa qayda, əsasnamə və ya təlimatın müvafiq maddəsinə uyğun olaraq əsassızdır:

"Qanuna istinad edilmir, amma qaydalara uyğun cavablar verilir. Hesab edirəm, bu məsələ də müzakirə edilməlidir". "Çalışmanın yaş həddinə çatmış müəllimlərin təhsil alması üçün dövlət kifayət qədər vəsait xərcləyir. Lakin sonradan biz onları işlə təmin etmiriksə, o zaman sual olunur ki, nə üçün dövlətin vəsaiti havaya sovrulur?" - Bəxtiyar Əliyev deyib.

✍ *Tahirə*

# "Bakcell" Zəngilanın Ağalı kəndində mağaza açdı



**19 may 2023-cü il tarixində Zəngilan rayonunun Ağalı kəndində yeni Bakcell mağazası fəaliyyətə başladı.**

Yeni Bakcell mağazasında Ağalı sakinlərinə şirkətin məhsul və xidmətlərinin geniş çeşidi, həmçinin mobil nömrələr və aksesuarlar təklif edilir. Mağazanın açılışında Bakcell şirkəti və yerli qurumların nümayəndələri ilə yanaşı Ağalı kəndinin sakinləri də iştirak edib.

Açılış mərasimi xüsusi olaraq uşaqlar üçün hazırlanmış əyləncə proqramı ilə yadda qalıb. Ağıllı kəndin gənc sakinləri üçün xoş sürpriz kimi tədbirdə müxtəlif oyunlar və şən yarışlar keçirilib, uşaqlara maraqlı hədiyyələr təqdim edilib. "NEQSOL Holding"in tərkibinə daxil olan Bakcell şirkəti hazırda "Bakcell ilə ən sürətli ol" şüarı ilə geniş-miqyaslı kampaniya həyata keçirir.



■ **İmişli Rayon İcra Hakimiyyətinin sabiq başçısı Vilyam Hacıyevin kassasiya şikayəti üzrə məhkəmə başa çatıb. Onun müsadirə olunmuş əmlaklarının qaytarılması ilə bağlı etdiyi müraciətə sonuncu instansiya olan Ali Məhkəmədə baxılıb.**

Qərara əsasən, əvvəlki instansiya məhkəməsinin qərarı dəyişdirilmədən saxlanılıb. Bununla da sabiq icra başçısının 5 milyon 344 min manatlıq əmlakının müsadirəsi və dövlət nəfinə keçirilməsi ilə bağlı bütün məhkəmə prosesləri bitmiş olub. Xatırladaq ki, Vilyam Hacıyev vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, təkrar rüşvət alma, vəzifə saxtakarlığında ittiham olunub.



■ **Rusiya Prezidenti Vladimir Putin Kremldə Çeçenistan rəhbəri Ramzan Kadırovun həyat yoldaşı Medni Kadırovaya "Qəhrəman Ana" fəxri adı ilə bağlı nişanı təqdim edib.**

Kremlin Yekaterina zalında baş tutan dövlət mükafatlarının təqdimetmə mərasiminin stenoqramı Rusiya prezidentinin saytında dərc olunub. "Uşaq böyütmək həm sevincdir, həm də gündəlik işdir.

Çoxuşaqlı ailələrə hörmət etmək xalqımızın adət-ənənəsidir. "Qəhrəman ana" adına layiq görülmüş Medni Musayevna Kadırovanı bu salonda salamlamağa şadam", - Putin təbrik nitqində deyib. Qeyd edək ki, Medni Kadırova 13 uşaq anasıdır.



■ **"Qanunsuz katalizator qumar oyunlarının qarşısının alınması üçün İqtisadiyyat Nazirliyi və "Azərlotereya" tərəfindən qanunvericiliyə dəyişiklik təklif ediləcək. Qəbul edirəm ki, bəzi şanslı oyun saytları sosial şəbəkələrdə çox geniş yayılıb".**

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinin müzakirəsi zamanı iqtisadiyyat nazirinin müavini Elnur Əliyev deyib. Nazir müavini bildirib ki, eyni zamanda bununla bağlı müraciət edilib: "İnanıram ki, xaricdə qeydiyyatdan keçən həmin şans oyunlarının fəaliyyəti yaxın zamanda ölkəmizdə məhdudlaşdırılacaq".



■ **"Büdcədə proqnozlar 3 cür olur. Pessimist, optimist və cari. Bizdə proqnozlar özünü doğrultmur. Nəticələr optimist proqnozlardan belə daha optimist olur. Bununla bağlı dinləmə keçirməyə ehtiyac var".**

Bunu deputat Əli Məsimli deyib. Deputat bildirib ki, Azərbaycanda ərzaq məhsullarının qiyməti ötən il çox artıb: "Bizdə inflyasiya həm inkişaf etmiş, həm inkişaf etməkdə olan, həm də qlobal inflyasiyadan 1,5 dəfə çoxdur. Hökumət bütün hesabatlarda inflyasiyanı yalnız bir amillə əsaslandırır - idxal inflyasiyası. Bu isə yumşaq desək, yanlışdır. Bununla bağlı dinləmə keçirməyi təklif edirəm".Əli Məsimli bildirib ki, Azərbaycanda güzəştli kreditlər simvolik xarakter daşıyır: "Burada rəqəm çox azdır.



■ **Şəhid ailələrinin, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin ana xəttini təşkil edir.**

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən xəbər verilib. Bildirib ki, Dövlət başçısının göstərişinə əsasən, bu kateqoriyadan olan vətəndaşların mənzillə təminatı proqramı 2018-2023-cü illərdə 5 dəfə genişlənib. Qeyd olunan dövrdə 7892, ümumilikdə ötən dövrdə 13 560 mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim edilib. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 2018-2023-cü illərdə 1582, ümumilikdə ötən dövrdə 7500-dən çox avtomobil verilib.



■ **Qeyri-neft sektoru üzrə aksizlərdə 539,0 milyon manat proqnoza qarşı daxilolma 524,7 milyon manat və ya nəzərdə tutulduğundan 14,3 milyon manat (2,7 faiz) az icra edilib.**

Bu barədə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrasına dair illik hesabatda bildirilib. Bu, 2021-ci illə müqayisədə isə 65,7 milyon manat (14,3 faiz) çoxdur.

Qeyri-neft sektoru üzrə aksiz vergisinin proqnozdan az icra olunmasının səbəbi 2022-ci il üzrə faktiki spirtli içki istehsalının proqnozların tərtibi zamanı təqdim edilən istehsal proqnozundan az olması ilə izah oluna bilər.

# Ət bahalaşır, idxalı artır

**_Bu ilin 4 ayında. Belə ki, statistik məlumatlara görə, bu ilin yanvar-aprel ayında Azərbaycana xaricdən 24 milyon 936 min dollar dəyərində 14 261 ton ət idxal edilib. Nəticədə 2022-ci ilin eyni ayları ilə müqayisədə ət idxalı dəyər ifadəsində 18 faiz, miqdar ifadəsində isə 16.5 faiz artıb. Xatırladaq ki, ötən ilin 4 ayında Azərbaycana 21 milyon 145 min dollar dəyərində 12 239 ton ət idxal edilmişdi. Bu il 1 ton ətin gömrük rəsmiləşdirilməsi qiymətində də artım var. Bu rəqəm 1728 dollardan 1749 dollara yüksəlib (21 dollar artım). Hesabat dövründə ət idxalı Azərbaycanın ümumi idxalının 0.47 faizini təşkil edib._**



## Bazar

> *Biz çox nadir hallarda mağazalarda xarici ət satıldığını görürük*

Bəs, görəsən, həm yerli, həm də idxal ətinin bahalaşmasına səbəb nədir? Bu istiqamətdə bahalaşma davam edəcəkmi? Ət bazarında ucuzlama nə vaxtdan müşahidə ediləcək?

■ **Məsələni qəzetimizə şərh edən Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli bildirib ki, Azərbaycanda ətin durmadan bahalaşması təxminən 2015-ci ildən başlayan prosesin nəticəsidir:**

"Çünki 2015-ci ildən Azərbaycanda heyvandarlıq sahələri alınaraq pambıq sahələrinə çevrildi. Pambıq strateji məhsul kimi dəyərləndirildi və onun əkin sahələrinin genişləndirilməsinə diqqət yetirildi. Bütün otlaq sahələri, hətta bəzən taxıl sahələri belə, aradan qaldırıldı və yerində pambıq əkildi. Ona görə də ölkədə ət istehsalı getdikcə zəiflədi".

Ekspert ötən dövr ərzində hökumətin heyvandarlığın inkişafına dəstəyinin olmadığını da vurğulayıb: "Məsələn, bitkiçilik - taxıl əkmək, digər məhsulları becərmək üçün fermerlərə az-çox dotasiya verilir. Hələ həmin dotasiyanın azlığından, hesabatlılığın olmamasından söz açmıram. Hər halda müəyyən qədər bu sahəyə dotasiyanın verilməsini əsas götürürəm. Çünki heyvandarlıq sahəsində heç o da yoxdur. Yalnız özünüməşğulluq proqramı çərçivəsində müəyyən rayonlarda heyvandarlıq fermerlərinin sayı bir qədər artırılıb. Yəni ət idxalının son illər artması ölkə daxilində heyvandarlığın zəifləməsiylə bağlıdır. Doğrudur, ölkə mətbuatında, televiziyalarda qeyri-neft sektorunun inkişafından kifayət qədər danışılır". İqtisadçı kənd təsərrüfatını ayağa qaldırmaq üçün bu sahəyə ciddi investisiyanın qoyulmalı olduğunu deyib: "Kənd təsərrüfatı ölkə daxilində əhalini ərzaq məhsulları ilə təmin etməlidir. Bunun müqabilində isə biz kənd təsərrüfatına investisiya qoymalıyıq, o cümlədən də heyvandarlıq məhsullarına. Bu gün təkcə ətdə deyil, ağartı məhsulları, eləcə də digər heyvandarlıq məhsullarında da qiymət və idxal artımı müşahidə edilir. Qeyri-neft sektorunun inkişaf istiqamətində ən böyük potensiala malik olan sahə kənd təsərrüfatıdır.

Oraya cəmi bir-iki milyard civarında vəsaitin ayrılması düzgün deyil, bu vəsait azı beş-altı dəfə çox olmalıdır, hər il büdcədən beş-altı milyard manat xərclənməlidir. Xərclənmə sahələrində isə şəffaflıq, hesabatlılıq təmin edilməlidir. Elə mexanizm tətbiq edilməlidir ki, həmin vəsait fermerə çatsın.

Bunun üçün də makroiqtisadi göstəricilərə nail olmaq gərəkdir". A.Nəsirli idxal edilən ətin də keyfiyyətcə yerli məhsulları əvəz edə bilmədiyini vurğulayıb: "Biz çox nadir hallarda mağazalarda xarici ət satıldığını görürük. İdxal edilən ət, əsasən, qapalı təşkilatların və digər dövlət müəssisələrinin ehtiyacları üçün istifadə edilir. İdxal nə qədər çox olsa da, bu yerli ehtiyacları tam ödəyə bilmir. Əhali daha çox yerli heyvandarlıq məhsulları istehlak edirlər. Ona görə də qiymətlər günbəgün artır. Təbii ki, dünyada da ətin qiyməti bahalaşır. Amma bu məbləğ bizdə olduğu qədər deyil".

Ekspert bahalaşmanın davam edib-etməyəcəyinə də aydınlıq gətirərək bildirib ki, qarşıdan yay mövsümünün gəlməsi ilə əlaqədar ətə olan tələbat azalacaq: "Bilirik ki, qarşıdan yay ayları gəlir. Bu ətə olan tələbatı bir qədər azaldacaq. Ona görə də payıza qədər ətin qiyməti sabit qalacaq. Amma payızda ətin qiyməti yenidən bahalaşa bilər".

■ **Məsələyə münasibət bildirən kənd təsərrüfatı üzrə ekspert Vahid Məhərrəmov da deyib ki, son dövrlər ölkədə heyvandarlığın zəifləməsi, fermerlərin bu sahədən imtina etməsi Azərbaycanda ət bazarına ciddi təsir göstərib:**

"Biz uzun illərdir xəbərdarlıq edirdik ki, yaxın zamanlarda ətin qiymətinin kiloqramı 20 manata qədər bahalaşacaq. Bunun da bir neçə səbəbi var. Uzun illərdi fermerlərin örüş kimi istifadə etdiyi sahələrinin 300-400 min hektardan çoxu zəbt edilərək əkin sahəsi kimi istifadə edilib. Həm örüş sahəsi, həm də yem məhsulları istehsalı azalıb. Məsələn, otun istehsalından 100 min tona qədər azalma oldu. Möhkəm yem bazası olmadan ət istehsalını artırmaq mümkün olmayacaq. Qalan örüş əraziləri yüklənib və məhsuldarlıq aşağı düşüb". Vahid Məhərrov onu da əlavə edib ki, hələ 2015 və 2018-ci ildə ərzaq təminatı iə bağlı dövlət proqramı qəbul edilmişdi ki, o proqramda qüvvəli yem istehsalını 2 milyon tona qaldırmaq nəzərdə tutulmuşdu: "Hələ də bu yüz min tondan yuxarı qalmayıb.

> *Möhkəm yem bazası olmadan ət istehsalını artırmaq mümkün olmayacaq*

Proqramda nəzərdə tutulandan 20 dəfə az qüvvəli yem istehsal olunur. Bu isə o deməkdir ki, ölkədə ət istehsalı dayanıqlı ola bilməz və ətin qiyməti hər dəfə belə dəyişəcək. Son beş ildə ətin qiyməti 50 faizdən çox bahalaşıb. Doğrudur, ölkədə digər məhsulların qiymətində də artım var, bu da təsir edən amildir, ət istehsaçıları həm də istehlakçı olduqları üçün çalışırlar ki, gəlirlərini artıraraq artan xərcləri ni kompensasiya etsinlər".

Vahid Məhərrəmovun sözlərinə görə bizdən fərqli olaraq dünyada ətin qiymətlərində azalma var: "Azərbaycanda isə keçən ildə dayanaqlı olaraq mal ətinin, qoyun ətinin, toyuq ətinin qiymətində artım olub. Bu il də artım müşahidə olunur. Ət kəsimi ilə məşğul olan şəxsləri, fermerləri günahlandırmaq doğru deyil. Çünki problem istehsalda, yem bazasının zəif olmasındadır. Daha çox məhsul istehsal etmək lazımdır. Bu da həm də ət istehlakının qarşısını alır. Ölkə əhalisinin tələbatına uyğun tələbat artmalıdır. Ət istehlakı ilə bağlı beynəlxalq hədd var. Lakin Azərbaycanda bu minimum hədd müyyən edilib. Azərbaycanda bu ortalama hədd 35, beynəlxalq normada isə 78 kiloqramdır. Əgər bu gün Azərbaycan adam başına 37-38 kq ət istehsal edirsə, bazarda ətlə bağlı xaotik vəziyyət yaranmalı, qiymət tez-tez dəyişməli və defisit yaranmalıdır".

***Sevinc***

## Müzakirə

**_Məlum olduğu kimi, Mərkəzi Bankın İdarə Heyətinin 16 may 2023-cü il tarixli Qərarı ilə "Günay Bank" ASC-nin lisenziyası 17 may 2023-cü il tarixindən etibarən ləğv edilib və bankın müflisləşmə yolu ilə ləğv edilməsi barədə məhkəməyə müraciət olunub._**




# Əmanətlərimiz təhlükədədir!

Mərkəzi Bankın bununla bağlı yaydığı məlumatda qeyd edilib ki, sözügedən qurumun qərarı ilə məcmu kapitalının miqdarının banklar üçün müəyyən edilmiş minimum miqdarından az olduğuna, məcmu kapitalının adekvatlıq əmsalının 3 faizdən az olmasına, habelə cari fəaliyyətini etibarlı və prudensial qaydada həyata keçirmədiyinə görə "Banklar haqqında" qanunun 16.1.6-cı, 16.1.7-ci, 16.1.9-cu və 61.1-ci maddələrinə əsasən "Günay Bank" ASC-nin lisenziyası 17 may 2023-cü il tarixindən etibarən ləğv edilib və bankın müflisləşmə yolu ilə ləğv edilməsi barədə məhkəməyə müraciət olunub. Bəs, maraqlıdır "Günay Bank"da olan əmanətlərin taleyi necə olacaq? Sözügedən bankın bağlanması bu sektora necə təsir göstərəcək? Hazırda daha hansı bankların bağlanma təhlükəsi var? Vətəndaşlar vəsaitlərinin yerli banklarda batmasından sığortalanmaq üçün hansı alətlərə yatırım edə bilərlər?

■ **Məsələ ilə iqtisadçı ekspert Xalid Kərimli bizimlə söhbətində bildirib ki, əslində "Günay Bank" maliyyə sektoru üçün ciddi və əhəmiyyətli bank deyildi:** "Amma bununla yanaşı xatırlatmaq yerinə düşər ki, "Günay Bank"ın bağlanmamasından əvvəl Mərkəzi Bank belə bir bəyanat yaydı ki, Azərbaycanda riskli bank yoxdur. Amma sonradan Mərkəzi Bank "Günay Bank"ın lisenziyasını ləvğ etdi. Bunun səbəbləri də müvafiq qərarda göstərildi vəqeyd olundu ki, "Günay Bank"ın məcmu kapitalına dair tələblərə uyğun olmaması, məcmu kapitalının adekvatlıq əmsalının 3 faizdən aşağı olması, Mərkəzi Bankın müəyyənləşdirdiyi etibarlılıq və puridensiallıq qaydalarına əməl etməməsi onun fəaliyyətinin sonlandırılması ilə nəticələnib. Bankın ümumi ölkə üzrə kredit portfeli cəmi 1 faizini təşkil edir. Həmçinin depozitlərdə payı 0.6 faiz, bank öhdəliklərində isə 0.5 faiz idi. Əslində Azərbaycanda 10-12 bank var ki, yaxın 5 ildə bağlanacağı proqnoz edilmir. Amma adını çəkmək istəmədiyim qalan digər kiçik banklar var ki, onların bağlanma riski mövcuddur. Lakin həmin bankların da mütləq bağlanacağını demək çətindir. Elə senarilər var ki, onları tətbiq etməklə həmin banklar risksiz banklardan da çox yaşaya bilərlər".

> *Əslində Azərbaycanda 10-12 bank var ki, yaxın 5 ildə bağlanacağı proqnoz edilmir*

> *Mövcud qaydalara əsasən, sığortalanmış əmanətlər tam olaraq kompensasiya olunaraq depozit sahiblərinə geri qaytarılacaq*

> *Vaxtilə Mərkəzi Bank rəsmiləri də bildiriblər ki, Azərbaycanda bu qədər banka ehtiyac yoxdur*

Ekspert vurğulayıb ki, bu gün vətəndaşı maraqlandıran əsas məsələ əmanətinin risksiz olmasıdır: "Vətəndaşlar banklara əmanət yerləşdirəndə qanunvericiliyə əsasən addım atmalıdırlar ki, riskləri olmasın və yaxud da az olsun. Hər bir bankda 100 min manata qədər və 12 faizi keçməmək şərtilə əmanət yerləşdirmək olar. Eyni zamanda, 100 min manat ekvavalentində 2,5 faizi keçməmək şərtilə digər valyutalarda investisiya qoymaq olar. Təbii ki, bu tələblər yerinə yetirildiyi halda bank bağlansa da, Əmanətlərin Sığortalanması Fondu həmin əmanətləri vətəndaşlara geri qaytaracaq. O ki qaldı vətəndaşların öz vəsaitlərini banklardan başqa hansı sahəyə yatırım edə biləcəklərinə, bizdə bununla bağlı digər alternativlər olduqca məhduddur. Məsələn, Avropada çox rahat şəkildə kapital bazarına, səhm bazarına investisiya yatırmaq mümkündür. Azərbaycanda isə kapital bazarı, səhm bazarı, istiqraz bazarı yox səviyyəsində olduğundan bu barədə vətəndaşlara məsləhət vermək çətindir. Ənənəvi olaraq vətəndaşlar özləri daşınmaz əmlak bazarına investisiya yatırırlar. Amma bu sahədə də qiymətlər son zamanlar ya çox az artır, ya da ümumiyyətlə artmır. Yəni, vətəndaşın əlindəki vəsaiti yerləşdirəcəyi çox istiqamət yoxdur. Kapital bazarının inkişaf etməməsi Azərbaycanda vətəndaşın investisiya imkanlarını məhdudlaşdırır".

■ **Məsələyə münasibət bildirən Milli Məclisin deputat Vüqar Bayramov deyib ki, "Günay Bank" müflisləşən zaman depozitlərinin həcmi 108 milyon 566 min manat olub:** "Bu portfelin 38.5 milyon manatı sığortalanmış əmanətlərdir. Mövcud qaydalara əsasən, sığortalanmış əmanətlər tam olaraq kompensasiya olunaraq depozit sahiblərinə geri qaytarılacaq. Mərkəzi Bankın məlumatına görə, bankın əmanətçilərinin say etibarı ilə 99,9 faiznin əmanətləri kompensasiya olunacaq. Bununla belə, bankda olan 70 milyon manata yaxın əmanət sığortalanmayıb. Əmanətçilər ilə depozit portfelinin həcminin müqayisəsi göstərir ki, sığortalanmamış əmanət az sayda vətəndaşlara məxsusdur. Yəni, bir sıra şəxslərin bu bankda milyonlarla ifadə olunan əmanətləri olub".

Deputat xatırladıb ki, hazırda fiziki şəxslərin bankda olan 100 min manatadək olan əmanətləri sığortalanır. Bu zaman milli valyutada olan əmanətlər üzrə qorunan divident faiz dərəcəsi 12, xarici valyutada isə 2.5 faizdir. Əmanətlərin Sığortalanması Fondu qorunan əmanətləri geri qaytarır, qorunmayan depozitlər isə praktik olaraq bankın məsuliyyətindədir. Müflis olan bankda isə qorunmayan əmanətlər aktivlər passivlərin üstələdiyi halda qaytarıla bilər. Bununla belə, qorunmayan əmanətlərin taleyi ilə bağlı Fond tərəfindən real addımların atılmasına ehtiyac var. Zəif bankların müflisləşməsi deyil, sağlamlaşdırılması daha prioritet olmalıdır".

■ **Mövzu ilə bağlı bank məsələləri üzrə ekspert Əkrəm Həsənov isə vurğulayıb ki, əslində Azərbaycanda məcmu kapitala qoyulan 50 milyon manat dünyada bu sahədə ən yüksək məbləğlərdən biridir:**

"Dünyada az-az ölkələr var ki, bank fəaliyyəti üçün məcmu kapitala bu qədər yüksək məbləğ tələbi qoyulur. ABŞ başda olmaqla, əksər ölkələrdə bu məbləğ simvolik xarakter daşıyır. Əsas diqqət bankın az pulla çox iş görmək potensialına yetirilir. Bizdə əvvəl bu tələb 5 milyon manat idi. Sonra 50 milyona qaldırdılar, məqsəd də bank sayını azaltmaq idi. Vaxtilə Mərkəzi Bank rəsmiləri də bildiriblər ki, Azərbaycanda bu qədər banka ehtiyac yoxdur. Bu, rəqabətin qarşısını almaq, az sayda banka daha rahat və inhisarçı şərait yaratmaq istəyindən irəli gələn yanaşmadır. Çünki məcmu kapitalı az olub, çox sağlam fəaliyyət sərgiləyə bilən banklar dünyada minlərlədir. Burada əsas bankın öz funksiyalarını effektiv şəkildə icra edə bilməsi, az maliyyə ilə çox iş görmək bacarıqlarıdır. Qanunvericilik elə olmalıdır ki, bankların hamısına bərabər şərtlər təmin etsin. "GünayBank"a gəlincə, bu bankın hansısa ciddi problemlərinin olduğuna dair hər hansı dəqiq məlumat eşitməmişəm. Normal, amma kiçik bir bankdır. Mütləq deyil ki, ölkədə bütün banklar böyük olsun, biri kiçik olar, biri orta, biri böyük. Əgər məqsəd az sayda iri banka inhisarçı şərtlər yaratmaq deyilsə, kiçik banklara dəstək verib ayaqda qalmasına yardım etmək lazımdır. İdarəçiliyində problem olmayan bir bankı niyə bağlayırsan axı? Hər bağlanan bank kiçik və orta sahibkarların kredit əlçatanlığını bir qədər də məhdudlaşdırır. Böyük banklardan kredit almaq hər sahibkar üçün əlçatan deyil. Bir çox kiçik və orta sahibkarlar məhz belə kiçik banklardan kredit ala bilirlər. İndi onları da bağlayırlarsa, bu, kiçik və orta sahibkarlar üçün böyük problemlər yaradacaq".

***Sevinc***

# Nar Cəlilabad Festivalında iştirak etdi!

®

**Azərbaycanın bölgələrinə xüsusi önəm verən mobil operator Nar bu dəfə Cəlilabad Festivalında iştirak etdi. Mobil operator festival iştirakçılarına xüsusi Nar çadırında əyləncə ilə yanaşı, mobil nömrə satışı və müştəri xidmətləri imkanı da təqdim etdi.**



Nar çadırındakı 360 dərəcəli video çəkiliş ziyarətçilərin böyük marağına səbəb oldu. Mobil operatordan nömrə əldə edən, mobil cihazında "Nar+" tətbiqini istifadə edən və Nar haqqında suallara doğru cavab verən ziyarətçilər dəyərli hədiyyələrlə mükafatlandırıldı. Qeyd edək ki, mobil operator Nar, həyata keçirdiyi layihələrlə Azərbaycanın bölgələrinə xüsusi diqqət ayırır. Bölgələrdəki yeni konseptli Nar mağazaları ilə daha üstün xidmət gətirir, təqaüd və təlim proqramları ilə təhsil imkanlarını genişləndirir və eləcə də yüksək sürətli interneti bölgələr üçün əlçatan edir.

Nar-ın həyata keçirdiyi layihələr haqqında ətraflı nar.az/-projects <https://www.nar.az/-projects> səhifəsində məlumat əldə edə bilərsiniz.

Nar hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. Nar son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Gözlərimiz üçün diqqətə almadığımız təhlükə

***Yazın sonuna yaxınlaşdıqca yay günəşi özünü göstərməyə başlayıb. Bununla belə, istər çimərlikdə, istərsə də parkda gəzinti zamanı insanların çoxunun nəzərə almadığı bir risk var: tibbdə fotokeratit kimi tanınan gözlərdə günəş yanığı! ABŞ-da yaşayan 47 yaşlı Dana Qaliano bu təhlükə üzündən ailəsi ilə tətilə gedəndə kabus yaşayıb. Bəs fotokeratit necə yaranır və buna səbəb nədir? Günəş eynəyi taxmaq həll yoludurmu?***



## Tibb

ABŞ-ın Nyu-Cersi ştatında yaşayan Dana Qaliano ailəsi ilə birlikdə çimərlikdə bir gününü sevinc içində keçirərkən başına nə gələcəyindən xəbərsiz olub. Qaliano çimərlikdə olduğu saatlarda heç vaxt günəş eynəyi taxmırdı. Evə çatanda gözlərində yanma hiss edib, sanki qum qaçıb. Araşdırmalar nəticəsində Qalianonun hər iki gözündə günəş yanığı və ya "fotokeratit" olduğu üzə çıxıb.

"Daily Mail"ə danışan Qaliano narahatlığın sağ gözündə başladığını ifadə edərək, "Mən çox tez-tez gün eynəyi taxan adam deyiləm. Heç vaxt göz xəstəliyim olmayıb. Amma ailəlikcə getdiyimiz dəniz kənarında gözümdə şiddətli yanma hiss etdim. Bir anlıq nəsə

> *Günəşə baxmaq UVA və UVB şüalarına məruz qalmağı artırır ki, bu da gözün demək olar ki, bütün təbəqələrinə mənfi təsir edir*

olduğunu düşündüm, amma yanıldım" deyib. Qaliano davam edir:

"Yanıqdan sonra gözlərimi yumub üzümü dəsmal ilə bağladım. Sahildən evə gələndə üzümü su ilə yaxaladım. Hətta anama dedim ki, baxa bilərsən, gözümdə qum var? Görünən heç nə yox idi. Gözlərim də qızarmırdı. Amma çox ağrılı idi. Bir neçə saatdan sonra ağrının intensivliyi azaldı. Sonra gözümdə bir cızıq gördüm və bu məni çox qorxutdu...".

Bir həftə sonra sol gözündə də eyni ağrının olduğunu deyən Qaliano "Getdiyim həkim "Gözündə günəş yanığı var və bu qalıcıdır", - deyib. Daha da pisləşə biləcəyini, gündəlik həyatıma təsir edəcəyini və görmə problemlərimin ola biləcəyini söyləyib.

"O an anladım ki, eynək taxmamaqla həyatımın səhvini etmişəm. Ömrümün sonuna qədər əziyyət çəkəcəyəm, bundan sonra daimi göz yorğunluğu yaşayacağam".

Nyu Yorkda göz cərrahiyyəsi üzrə ixtisaslaşmış oftalmoloq Dr. Jeff Dello Russo'ya görə, fotokeratit səbəbiylə daimi görmə pozğunluğu yay aylarında adi haldan daha çox olur.

"Bu, yayda çox tez-tez baş verir. Gözlərinizin qızarması və qıcıqlanmasından başqa heç bir görünən simptom olmadan fotokeratit ola bilərsiniz", - Russo bildirib.

**Oftalmoloq Sezer Hacıağaoğlu isə bildirir ki, birbaşa günəşə baxmaq UVA və UVB şüalarına məruz qalmağı artırır ki, bu da gözün demək olar ki, bütün təbəqələrinə mənfi təsir edir.** Bu vəziyyət dərimizdə yanıqlara səbəb olduğu kimi, fotokeratit dediyimiz günəş işığı yanıqları da gözün ön şəffaf təbəqəsi olan buynuz qişaya təsir edir. Bundan əlavə, havanın temperaturunun artması və buna görə də buxarlanma səbəbindən göz yaşlarımız çox daha sürətli buxarlanır. Bu səbəbdən, göz yaşlarımızın buynuz qişa səthindəki qoruyucu qalxan təsiri aradan qalxır və görmə qabiliyyətinə təsir edən bir şəkil ortaya çıxır.

**Oftalmologiya mütəxəssisi Muhsin Eraslan deyir: "Təəssüf ki, günəş şüalarının yer üzünə daha çox gəldiyi fəsil olan yayda ultrabənövşəyi şüaların zərərli təsirləri bədənimizi daha aydın şəkildə təhdid edir".**

"Yay ??fəsli istisna olmaqla, qışda dəniz səviyyəsindən yuxarı qalxdıqca ultrabənövşəyi şüaların təsiri artdığından, xizək kurortlarında vaxt keçirən insanlarda da bu problem yaranır.

Gözümüz üçün təhlükə yarada bilən bu birbaşa günəş işığına məruz qalma təkcə gözümüzün ən xarici təbəqəsi olan buynuz qişada deyil, ən daxili təbəqə olan tor qişada da yanma riski yaradır. UVA şüaları birbaşa ozon təbəqəsindən keçərək yerə çatan günəş şüalarıdır. Bulud və şüşədən keçmək, dərinin alt qatına təsir etmək qabiliyyətinə malikdir. UVB şüaları isə ozon təbəqəsindən yüksək dərəcədə süzülür. Dərinin üst qatına təsir göstərir. Onların sıxlığı günün vaxtına və mövsümə görə artır".

"Fotokeratit inkişaf edən bir gözdə anidən bulanıq görmə, qızartı, ağrı, sancma və sulanma kimi şikayətlər var", - Sezer Hacıağaoğlu deyir.

- "Ona görə də bu əlamətlərdən biri görünsə və uzun müddət günəş işığına məruz qaldıqdan sonra keçməzsə, bir göz həkiminə müraciət edilməlidir".

**Uzun müddət günəş işığına məruz qaldıqdan sonra göz şikayətləri meydana gəldiyini vurğulayan Prof. Dr. Muhsin Eraslan "Burada su çox önəmlidir, gözləri yaxşıca yumaq lazımdır. Əslində göz qapalı saxlanılmalı və göz qapaqlarına soyuq kompreslər vurulmalıdır. Ancaq gözləri ovuşdurmaqdan mütləq çəkinmək lazımdır" deyir.**

Hacıağaoğlunun sözlərinə görə, istifadə etdiyiniz süni gözyaşardıcı damcılarınız varsa, bu damcıları damlatmaq da faydalı olacaq. Ancaq görmə şikayəti davam edərsə və görmə təsirlənərsə, həkimə müraciət edilməlidir.

**Mümkün olduğu qədər isə günəşin dünyanın ən hündür nöqtəsində olduğu saat 10:00-dan 17:00-a qədər çölə çıxmamaq barədə mütəxəssislər xəbərdarlıq edir. " Bu saatlarda çölə çıxmaq məcburiyyətində olanlar mütləq qoruyucu papaq və gün eynəyi taxmalı, çöldə qaldıqları vaxtı mümkün qədər qısa tutmalıdırlar", - Sezer Hacıağaoğlu deyir.**

Möhsin Eraslan isə bildirir ki, buynuz qişa xəstəliyi öyküsü olanlar və göz qapaqlarını hərəkət etdirə bilməyənlər və ya hərəkət qabiliyyəti azalmışlar risk altındadır.

Bu riskli qrupdan başqa günəş şüalarına normaldan daha çox məruz qalanları fərqli təhlükələrin gözlədiyini ifadə edən Hacıağaoğlunun sözlərinə görə, UVA və UVB tək buynuz qişa səthinə deyil, gözün bütün təbəqələrinə də mənfi təsir göstərir. Gözün ağ hissəsini və göz qapaqlarının içini örtən təbəqədə xalq arasında "quş qanadı" adlandırılan ptergium xəstəliyinə səbəb ola bilər. Kataraktın inkişafını sürətləndirir və gözün tor qişası olan tor qişada makula degenerasiyası kimi qalıcı dəyişikliklərə və görmə itkisinə səbəb ola bilər.



Bu cür problemlərdə günəş şüaları ilə yanaşı, yüksək güclü lazer şüaları və cərrahi mikroskop şüalarının da təsirli olur. Uzun davam edən əməliyyatlar zamanı bu vəziyyəti nəzərə almaq və tədbir görmək çox vacibdir. Günəş eynəkləri bu nöqtədə ən vacib vasitə kimi görünür. Bəs eynək dedikdə nələrə diqqət etməlisiniz?

"Keyfiyyətsiz günəş eynəyi taxmaq ultrabənövşəyi zərərin inkişafı üçün əsas risk faktorudur", - Sezer Hacıağaoğlu deyir: "Günəş eynəklərinin linzaları tam olaraq UV-dən qorunmalıdır. Bu o deməkdir ki, günəş eynəyi linzaları həm UVA, həm də UVB-yə qarşı ən azı 99 faiz tıxanma təmin edir".

Günəş eynəklərinin işığın qarşısını alan gücünü sertifikatdakı UV200, UV400 və UV600 kimi ifadələrdən anlamaq olar. Minimum UV400 mühafizəsi olan gün eynəklərindən xüsusilə dəniz kənarında istifadə edilməlidir.

Əgər ultrabənövşəyi şüalardan qorunmayan gün eynəklərini seçsək, gözlərimiz tünd şüşə rənginə görə daha qaranlıq bir mühitə girdiklərini düşünərək göz bəbəklərini refleks olaraq genişləndirəcək. Bu, gözlərə daha çox ultrabənövşəyi işığın daxil olmasına səbəb olacaq. Bu səbəbdən ultrabənövşəyi şüalardan qorunma sertifikatı olan gün eynəklərini seçmək çox vacibdir...". Şəffaf kontakt linzaların böyük əksəriyyətinin ultrabənövşəyi şüalardan da qorunduğunu söyləyən Hacıağaoğlu deyir: "Bu linzalar sizi günəşdən də qoruyur. Bununla belə, qeyd etmək lazımdır ki, kontakt linzalar həkim resepti ilə alınmalıdır".

> *Keyfiyyətsiz günəş eynəyi taxmaq ultrabənövşəyi zərərin inkişafı üçün əsas risk faktorudur*

*Sevinc*

## ELAN

**Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecinin kompüter şəbəkələri və şəbəkə inzibatçılığı fakültəsinin tələbəsi Fərzəliyeva Leyla Teymur qızına məxsus tələbə bileti itirildiyi üçün etibarsız sayılır.**

## HƏFTƏ REYTİNQ

### Həftənin TƏYİNATI



Sənan İsa oğlu Paşayev Naxçıvan Muxtar Respublikasının prokuroru təyin edilib. Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb. Qeyd edək ki, S.Paşayev ötən il Naxçıvan MR prokurorunun müavini təyin edilmişdi.

### Həftənin DƏSTƏYİ



ATA İttifaqının Türkiyə Prezidenti postuna namizədi Sinan Oğan ikinci turla bağlı qərarını açıqlayıb. Bu barədə o, mətbuat konfransında məlumat verib. O deyib ki, ikinci turda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı dəstəkləyəcək. Qeyd edək ki, Sinan Oğan seçkilərin ilk turunda 5%-dən çox səs toplayıb.

### Həftənin QƏRARI



Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəis müavini işdən çıxarılıb. Xidmət rəisi polkovnik Mürsəl İbrahimovun əmri ilə 1-ci müavini general-mayor Zaur Abdullayev vəzifəsindən kənarlaşdırılıb. Hələlik onun yerinə təyinat yoxdur. Qeyd edək ki, ötən ay Mürsəl İbrahimov Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə rəis təyin edilib.

### Həftənin ATASI



Böyük Britaniyanın keçmiş Baş naziri Boris Consonun 7-ci uşağı dünyaya gələcək. B. Consonun həyat yoldaşı Kerri Conson da təsdiqləyib. Bu, cütlüyün üçüncü övladı olacaq, lakin Consonun əvvəlki nikahından dörd uşağı var.

### Həftənin SUBAYI



Dünyanın ən varlı adamı və "Amazon"un yaradıcısı Ceff Bezos ikinci dəfə evlənir. O, jurnalist sevgilisi Lauren Sançezə yeni yaxtasında gəzinti zamanı evlilik təklifi edib. Məlumata görə, Bezos ona brilyant qaşlı üzük hədiyyə edib.Qeyd edək ki, Bezos daha əvvəl Makkenzi Skottla evli olub. Onların 25 illik evliliyindən dörd övladı dünyaya gəlib. Ayrılığa səbəb Bezosun ona L. Sançezlə xəyanət etməsi olub.

Boşandıqdan sonra Bezos keçmiş xanımına "Amazon" səhmlərinin bir hissəsini verib, bu da Skottu dünyanın ən zəngin qadınlarından biri edib.

### Həftənin HAKİMİ



İspaniya La Liqasının 35-ci turunda keçirilən "Valensiya" - "Real" matçının VAR hakimi İqlesias Villanueva hakimlikdən ömürlük kənarlaşdırılacaq. Bu barədə İspaniya Kral Futbol Federasiyası qərar qəbul edib. Federasiya "Real"ın hücumçusu Vinisius Juniorun qırmızı vərəqə aldığı epizodda səhvə yol verən Vilyanuevanın hərəkətinə bu cür qiymət verib.

*Azad Əliyev*

## GÜNÜN FOTOSU



**Kann film festivalında qırmızı xalını bəzəyənlər**

# Əmanətlərimiz təhlükədədir!

**Xalid Kərimli,**
iqtisadçı ekspert

Əslində Azərbaycanda 10-12 bank var ki, yaxın 5 ildə bağlanacağı proqnoz edilmir.

Səh. 7

## STATİSTİKA



**■ 2022-ci il üçün dövlət büdcəsinin gəlirləri 30-679,6 milyon manat, təsdiq olunmuş proqnoza qarşı 5,1 faiz çox, xərcləri 32064,6 milyon manat, təsdiq olunmuş proqnoza qarşı 0,7 faiz az və müvafiq olaraq dövlət büdcəsinin kəsiri 1385,0 milyon manat və ya təsdiq olunmuş proqnozla müqayisədə 55,4 faiz az olub.**




Səh. 6

# Qazanan banklar, itirən vətəndaşdır